

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# Bizi Qarabağ və Şərqi Zəngəzura aparan yollar



9

№ 220 (6903)

1 dekabr 2023-cü il.
Qiyməti 60 qəpik

# Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq əlaqələri hərtərəfli inkişaf edir



2

Prezident İlham Əliyev Dubayda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb

# Vəhşi, vəhşi Qərb...



Yaxud, səhvlərini sıralayan Avropa Azərbaycandan nə istəyir?

5

## QİÇS-dən necə qorunmalı?




15

## AXCP-nin növbəti qurultayı Əli Kərimli üçün sonuncu ola bilər



14

## 3 il əvvəl, 1 dekabr



11

## Bakıda parkinqlər qazanc, yoxsa problemin həlli üçündür?



7

## Süni kirpiklərin dəhşətli fəsadları - KOR EDİR



10

# Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq əlaqələri hərtərəfli inkişaf edir

## Prezident İlham Əliyev Dubayda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb

***BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunacaq Dünya İqlim Fəaliyyəti Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərində səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28-ə ev sahibliyi etməsi və bu tədbirin yüksək səviyyədə təşkil olunması münasibətilə Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana təbriklərini çatdırdı. Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və qardaşlığa əsaslanan əlaqələrin hərtərəfli inkişafından məmnunluq ifadə olundu.



Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin sərmayəsi ilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təsis edilməsi və onun açılış mərasimində Birləşmiş Ərəb Əmirliklərinin 4 nazirinin iştirakı ölkələrimiz arasında qardaşlığın bariz nümunəsi kimi qiymətləndirildi. Birləşmiş Ərəb Əmirliklərindən olan tərəfdaşlarla imzalanmış sazişlərə uyğun olaraq bərpaolunan enerjinin 10 qiqavata çatdırılacağı vurğulandı.

Söhbət zamanı ölkələrimiz arasında yaradılmış birgə investisiya fondunun əhəmiyyəti qeyd edildi, bunun iqtisadi-ticari əlaqələrimizin və qarşılıqlı sərmayə sahəsində əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyi bildirildi. SOCAR ilə Əbu-Dabi Milli Neft Şirkəti - ADNOC arasında uğurlu əməkdaşlığın və birgə layihələrdə iştirakın əhəmiyyəti vurğulandı.

Birləşmiş Ərəb Əmirliklərinin "AD Ports Group" şirkətinin Azərbaycan ilə limanlararası, gəmiçilik, nəqliyyat, logistika sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu, Orta Dəhliz istiqamətində nəqliyyat-logistika sahəsində tərəfdaşlığın böyük perspektivlərinin olduğu qeyd edildi. Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu. Görüşdə regional məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.






# "Azərbaycan dünyanın ən çox minalanmış ölkələrindən olmasına baxmayaraq, bu sahədə ən az beynəlxalq dəstək alır"

***Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlament nümayəndə heyətinin Almaniya Federativ Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkədə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində Milli Məclis sədrinin səfəri ilə bağlı qəbul təşkil olunub. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Almaniya Bundestaqının üzvləri, xarici ölkələrin səfirləri, Almaniya XİN-in və digər dövlət qurumlarının yüksəkvəzifəli təmsilçiləri, o cümlədən elm, mədəniyyət xadimləri, müxtəlif şirkətlərin nümayəndələri, iş adamları və Azərbaycan diasporunun təmsilçiləri iştirak ediblər.***

Azərbaycanın bu ölkədəki fövqəladə və səlahiyyətli səfiri Nəsimi Ağayev çıxış edərək, parlament nümayəndə heyətini və qonaqları salamlayaraq, iki ölkə arasındakı münasibətlər, bu səfərin əhəmiyyəti barədə fikirlərini bildirib.

Tədbir iştirakçılarını salamlayan parlamentin spikeri, bu ölkəyə rəsmi səfərini dövlətlər arasında mövcud olan yüksək səviyyəli münasibətlərin bariz nümunəsi adlandırıb. O, keçən il Azərbaycan ilə Almaniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyini, ötən dövrdə müxtəlif sahələrdə fəal və səmərəli əməkdaşlığın mövcud olduğunu diqqətə çatdırıb.

Tədbirdə ölkələrimiz arasında davamlı siyasi dialoqun mövcud olduğu, yalnız bu il ərzində Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya iki səfərinin baş tutduğu, bu səfərlər çərçivəsində Prezident Frank-Valter Ştaynmayer və kansler Olaf Şoltsla görüşlərinin əməkdaşlıq əlaqələrinin müzakirəsi baxımından faydalı olduğu diqqətə çatdırılıb. İki ölkə



arasında uzun illər ərzində müxtəlif sahələrdə mövcud olan qarşılıqlı faydalı əməkdaşlığa toxunan Sahibə Qafarova bildirib ki, Almaniya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Alman şirkətləri ölkəmizdə uğurla fəaliyyət göstərir, müxtəlif layihələrin icrasında iştirak edirlər. Vurğulanıb ki, müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin şaxələndirilməsi və genişləndirilməsi üçün daha geniş imkanlar mövcuddur.

Çıxışda təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsində və qarşılıqlı anlaşmanın təşviqində mühüm rolu qeyd olunub. XIX əsrin əvvəllərində Azərbaycanda məskunlaşmış alman mühacirlərinin tarixi-mədəni irsinin dövlət səviyyəsində qorunduğunu deyən parlamentin spikeri bildirib ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq, 2017-ci ildə Azərbaycanda alman məskənlərinin salınmasının 200 illik yubileyi həm Azərbaycanda, həm də Almaniyada çoxsaylı tədbirlərin keçirilməsi ilə qeyd olunub.

Sahibə Qafarova qeyd edib ki, bugünkü Azərbaycan xalqımızın qədim dövlətçilik ənənələrinin uğurlu varisidir. Azərbaycan xalqı bu ənənələrə əsaslanaraq 1918-ci ildə müsəlman Şərqində ilk parlamentli demokratik respublika qurub. Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu dövrdə mühüm tədbirlər həyata keçirərək, vətəndaşlara irqi, etnik, dini ayrı-seçkilik olmadan bərabər hüquqlar verib, müsəlman Şərqində ilk dəfə və bəzi Avropa ölkələrindən xeyli əvvəl qadınlara səsvermə hüququ verib. Spiker bu il 100 illik yubileyini qeyd etdiyimiz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəqilliyimizin daxili və xarici təhlükələrdən qorunmasında, müasir dövlətçiliyimizin inkişafında müstəsna rolunu xüsusi vurğulayıb.

Milli Məclisin sədri Azərbaycanın bu gün ən müxtəlif sahələrdə qazandığı nailiyyətlər barədə də tədbir iştirakçılarına məlumat verib. Çıxışda ölkəmizin son 20 ildə mühüm iqtisadi tərəqqiyə nail olduğu qeyd edilib, ÜDM-in dörd dəfə, büdcə gəlirlərinin 30 dəfə, xarici ticarət dövriyyəsinin 10 dəfədən çox artması diqqətə çatdırılıb. Bildirilib ki, ölkəmizdə yoxsulluğun səviyyəsi 50 faizdən 5,5 faizə düşüb. Ötən 20 il ərzində Azərbaycana 310 milyard ABŞ dolları həcmində sərmayə qoyulub ki, bunun da 200 milyarda yaxın hissəsi iqtisadiyyatın qeyri-neft sektoruna yatırılıb.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın işğalına toxunan parlamentin spikeri deyib ki, Azərbaycan işğala məruz qalmasına baxmayaraq, 44 günlük Vətən müharibəsindən sonra Ermənistana beynəlxalq hüququn 5 prinsipi əsasında sülh sazişi imzalamağı təklif etməklə regionumuzda uzunmüddətli davamlı sülhün bərqərar olunması istiqamətində böyük səylər göstərir.

İştirakçıların diqqətinə çatdırılıb ki, Ermənistanın siyasi və hərbi təxribatları, onun son 3 ildə üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi, ərazilərimizdə yaradılmış qanunsuz separatçı rejimə davamlı dəstəyi Azərbaycanın Qarabağ bölgəsində antiterror tədbirlərinin keçirilməsini qaçılmaz edib. Bu tədbirlər beynəlxalq hüquq normalarına tam uyğun şəkildə həyata keçirilib, mülki şəxslər arasında itki qeydə alınmayıb. Nəticədə separatçı rejim özünü buraxdığını elan edib və Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü bərpa edib.

Milli Məclisin sədri təəssüflə xatırladıb ki, işğal illərində Ermənistanın bu ərazilərdə 1 milyondan çox mina basdırması yenidənqurma işlərini və keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıtmasını ləngidir. 2020-ci ildə müharibə başa çatdıqdan sonra 340-dan çox azərbaycanlı mina partlayışlarının qurbanı olub. Onun sözlərinə görə, Azərbaycan dünyanın ən çox minalanmış ölkələrindən olmasına baxmayaraq, minatəmizləmə fəaliyyətlərində ən az beynəlxalq dəstək alır. Sahibə Qafarova Almaniya hökumətinin Azərbaycanın humanitar minatəmizləmə səylərini dəstəkləmək qərarını yüksək qiymətləndirib.

Çıxışının yekununda Milli Məclisin sədri Sahibə Qafarova qeyd edib ki, bu gün artıq Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına heç bir maneə yoxdur. Müharibənin gətirdiyi bütün ağrı-acılara baxmayaraq, Azərbaycan dəfələrlə sülhə hazır olduğunu ifadə edib. Azərbaycan Prezidenti İlham Əliyevin də dediyi kimi, bu, ədalətli sülh olmalıdır - hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınmasına əsaslanan sülh. Belə sülh sabitliyə, inkişafa və əməkdaşlığa nail olmağın yeganə yoludur

# Azərbaycan - Böyük Britaniya: etimada əsaslanan tərəfdaşlıq

**Azərbaycan - Böyük Britaniya əlaqələri tarixi və strateji əhəmiyyətə malikdir və ölkələr arasında olan münasibətlərin daha da genişləndirilməsi üçün geniş perspektivlər mövcuddur. Son illərdə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, mədəniyyət, elm-təhsil sahələrində çox böyük nailiyyətlərin əldə olunub. Bütün bunlar Azərbaycanın milli maraqlarımıza uyğun olaraq apardığı müstəqil xarici siyasətinin məntiqi nəticəsi olaraq təzahür olunur.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik Ölkələri və İnkişaf Ofisində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini, Avropa və Şimali Amerika üzrə dövlət naziri Leo Dokertini qəbul etməsi bu əlaqələrin dərinləşməsində rola malikdir. Dövlətimizin başçısı Leo Dokertinin Azərbaycana səfərinin ikitərəfli, eləcə də regional gündəliyin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirib. Prezident İlham Əliyev iqtisadi əlaqələrimizin enerji sahəsində əməkdaşlıqdan başladığını, BP şirkəti ilə uzun illər səmərəli və qarşılıqlı etimada əsaslanan işbirliyinin həyata keçirildiyini qeyd edib. Prezident İlham Əliyev qeyd etdi ki, BP şirkətinin uzun illər bundan əvvəl Azərbaycanda fəaliyyətə başlaması ölkəmizin iqtisadi inkişafında və respublikamızda investisiya layihələrinin həyata keçirilməsində mühüm rol oynayıb. Dövlətimizin başçısı hazırda Azərbaycan-BP əməkdaşlığının bərpaolunan enerji sahəsi ilə bağlı yeni mərhələyə qədəm qoyduğunu bildirərək, bunun region üçün çox gözəl nümunə olduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, Azərbaycan Böyük Britaniya münasibətlərinin müasir tarixi ötən əsrin 90-cı illərin əvvəllərinə təsadüf edir. Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini yenidən bərpa etdi və çox keçmədi ki, Böyük Britaniya Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 31-də tanıdığını və onunla hərtərəfli əlaqələri inkişaf etdirməyə hazır olduğunu bəyan etdi. Azərbaycanla Böyük Britaniya arasında 11 mart 1992-ci ildə diplomatik münasibətlər barədə saziş imzalanıb. Həmin tarixdən 30 ildən artıq zaman ötür. Bu illər ərzində iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi baxımından yüksək tarixi nailiyyətlər əldə edilmişdir. Heç şübhəsiz ki, bu uğurların qazanılmasında Ümummilli Lider Heydər Əliyevin zəngin siyasi təcrübəsinin, regionda cərəyan edən prosesləri proqnozlaşdırmaq və dəqiq qiymətləndirmək bacarığının mühüm rolu vardır. Böyük Britaniyanın Azərbaycandakı səfirliyi 1992-ci ilin sentyabrında ticarət nümayəndəliyi kimi fəaliyyətə başlayıb. Londonda Azərbaycan səfirliyi isə 1994-cü ilin yanvar ayından fəaliyyət göstərir. Qısa dövr ərzində iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi baxımından yüksək tarixi nailiyyətlər əldə edilmişdir.

## YENİ MƏRHƏLƏ BAŞLANDI

1993-cü ildə Ulu Öndər Heydər Əliyev Böyük Britaniyanın Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri ilə görüşüb. Görüş Ermənistanın Azərbaycana qarşı təcavüzünün qızğın dövründə, erməni silahlı birləşmələrinin Azərbaycanın Ağdam rayonuna hücumları vaxtı keçirilib. Səfir Tomas Yanq Ulu Öndər Heydər Əliyevə Britaniya hökumətinin Azərbaycanın sərhədlərinin toxunulmazlığını tanıdığını bildirib və həmin dövrdə BMT Təhlükəsizlik Şurasının sədri kimi Birləşmiş Krallığın öz səlahiyyətlərindən məsələnin həllində kömək üçün istifadə edəcəyini bildirib. Tomas Yanqın bəyanatına uyğun olaraq Britaniya hökuməti 27 iyul 1993-cü ildə Ağdamın Ermənistan tərəfindən işğal olunmasına etirazını bildirib. Bir gün sonra isə BMT TŞ-də müzakirələr nəticəsində sədrlik edən Britaniyanın da təsiri ilə həmin rayonun işğalına qarşı 853 saylı qətnamə qəbul olunub.

Ulu Öndər Heydər Əliyev 22-25 fevral 1994-cü ildə ilk dəfə həmin ölkədə rəsmi səfərdə olub. Səfər zamanı Ümummilli Lider Heydər Əliyev və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Con Meycor iki ölkə arasında əməkdaşlıq məsələlərini tənzimləyən başlıca sazişi - Azərbaycan Respublikası və Böyük Britaniya arasında "Dostluq və əməkdaşlıq haqqında birgə bəyannamə"ni imzalayıblar. Ümummilli Lider Böyük Britaniyaya ilk səfərində Azərbaycanın Birləşmiş Krallıqla əməkdaşlıqda əsas məqsədini ifadə edib: "...Böyük Britaniyanı dünya siyasətində sanballı, siyasi çəkisi olan ölkə, dünya iqtisadi sistemində çox mühüm yer tutan, zəngin tarixi və ənənələri olan ölkə, hərtərəfli əməkdaşlıq yaratmaqla ondan çox şey öyrənmək mümkün olan ölkə hesab edirik."

19-24 iyul 1998-ci ildə Heydər Əliyevin Böyük Britaniyaya ikinci rəsmi səfəri baş tutub. Səfər ölkələr arasında ikitərəfli münasibətlərin inkişafında əsaslı rol oynayıb. Ümummilli Lider tərəfindən uğurla inkişaf etdirilən iki ölkə arasındakı əlaqələr Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Dövlətimizin başçısının 2004, 2009 və 2018-ci illərdə Böyük Britaniyaya rəsmi səfəri baş tutmuşdur. Böyük Britaniya ilk Qərb dövlətidir ki, Azərbaycana qoyulacaq maliyyə vəsaitlərinə dövlət zəmanəti verir və hər cür investisiya qoyulmasını rəsmi alqışlayır. Britaniya hökumətinin 25 milyon dollar həcmində dövlət təminatına dair ilk qərarı 1996-cı ilin iyununda verilmişdir. Britaniya hökumətinin 1998-ci ilin əvvəlində qəbul etdiyi qərarla Azərbaycana kreditlər üzrə təminatların həcmi 100 milyon dollardan yuxarı artırılmışdır ki, bu da Rusiyadan başqa digər MDB ölkələri üçün verilmiş kreditlərin həcmindən çoxdur.

## NEFT-QAZ SƏNAYESİ SAHƏSİNDƏ UĞURLA ƏMƏKDAŞLIQ

İki ölkə arasında siyasi münasibətlərimizin yüksək səviyyədə olması iqtisadi münasibətlərə də öz müsbət təsirini göstərib. Böyük Britaniya Azərbaycana yatırılan investisiyanın həcminə görə liderliyi saxlamaqdadır. Ölkələrimiz neft-qaz sənayesi sahəsində uğurla əməkdaşlıq edir. BP şirkəti ilə həyata keçirilən səmərəli əməkdaşlıq əlaqələri uğurla davam etdirilir. Şirkət Azərbaycanın neft-qaz sektorunun inkişafına və modernləşdirilməsinə mühüm töhfələr verməklə enerji sektorunda ölkəmizin əsas tərəfdaşı qismində çıxış edir.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Azərbaycanda ən böyük xarici investorlardan biridir. Böyük Britaniya Azərbaycana yatırılan investisiyanın həcminə görə liderliyi saxlamaqdadır və bu rəqəm 27 milyard ABŞ dollarını keçib. Bu gün Azərbaycanda 500-ə yaxın Britaniya sərmayəli şirkət var və onların arasında qeyri-neft sektorunda fəaliyyət göstərənlərin sayı çoxdur. Hazırda da qeyri-neft sahəsində ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə böyük diqqət verilməkdədir. İndiyədək Azərbaycan və Böyük Britaniya arasında 10-a yaxın biznes forum və investisiya sammiti təşkil edilib.

Xüsusi olaraq qeyd edək ki, "Əsrin Müqaviləsi"nin imzalanması ilə "Bi-Pi/Statoyl" alyansının ölkəmizdəki fəaliyyətində yeni mərhələ başlanmışdır.

BP şirkəti ilə 1994-cü ilin 20 sentyabr tarixində imzalanmış və 2017-ci il sentyabr ayında müddəti 2050-ci ilədək uzadılmış "Əsrin Müqaviləsi" ilə Xəzər dənizinin Azərbaycan sektorunda həyata keçirilən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənməsi layihəsində operator kimi bugünə qədər səmərəli fəaliyyət göstərmişdir. BP şirkəti ilə həmçinin "Şahdəniz", "İnnam", "Şəfəq-Asiman", "Abşeron Yarımadası Dayazsulu sahə" layihələri üzrə Hasilatın Pay Bölgüsü Sazişləri imzalanmış, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi boru kəməri layihələrində də uğurlu əməkdaşlıq yaranmışdır. 2004-cü ilin dekabrında Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya səfəri zamanı İlham Əliyevin ölkənin baş naziri Toni Bleyerlə görüşündə 1998-ci ildə imzalanmış "Dostluq münasibətləri və tərəfdaşlıq haqqında bəyannamə" yenidən təsdiqlənib. 12-13 iyul 2009-cu il tarixdə Prezident İlham Əliyev Böyük Britaniyaya növbəti səfəri çərçivəsində Baş nazir Qordon Braunla görüşüb. 2012-ci il iyulun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Böyük Britaniyaya işgüzar səfərdə olublar. İyulun 28-də Londonda XXX Yay Olimpiya Oyunları çərçivəsində "Azərbaycan günü" keçirilib.

## DÖVLƏTLƏRARASI MƏDƏNİ ƏMƏKDAŞLIQ

Növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti 2018-ci ilin 26 aprel tarixində Böyük Britaniya Baş nazirinin dəvəti əsasında bu ölkəyə işgüzar səfər edib. Səfər çərçivəsində görüşlər keçirilib və qarşılıqlı əməkdaşlıqla bağlı saziş imzalanıb.

Ulu Öndər Heydər Əliyev və Böyük Britaniyanın Baş naziri Con Meycor tərəfindən 23 fevral 1994-cü ildə imzalanmış "Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığa dair saziş" Britaniya ilə Azərbaycan arasında mədəni əməkdaşlığın hüquqi əsasını qoyub. Azərbaycan və Britaniya xalqları arasında təhsil, elm və mədəniyyət sahələrində əlaqələrin inkişafında tarixi əhəmiyyət daşıyan bu saziş imzalandığı gündən iki ölkə arasında qarşılıqlı anlaşmaya geniş zəmin yaradıb. Bundan sonra Böyük Britaniyanın xarici ölkələrlə elmi-mədəni əlaqələrini təşkil edən əsas təşkilat olan British Council Azərbaycanda fəaliyyətini genişləndirib. Sazişin 14-cü maddəsinə əsasən, British Council iki ölkə arasında təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıqda Böyük Britaniya hökumətinin əsas vasitəçisidir. Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə British Council-ın səmərəli fəaliyyəti Ulu Öndər Heydər Əliyev və Birləşmiş Krallığın baş naziri Toni Bleyerin 1998-ci ilin iyulun 21-də imzaladıqları birgə bəyannamədə də qiymətləndirilib.

## AZƏRBAYCANA 30 MLRD DOLLARDAN ÇOX YATIRILAN İNVESTİSİYA

Vətən müharibəsindəki möhtəşəm qələbədən və uzun illər davam edən regionda sülhə və təhlükəsizliyə böyük təhdid olan Qarabağ münaqişəsinin həllindən sonra Azərbaycanın beynəlxalq nüfuzu daha da artmış, regionda yeni bir situasiya yaranmışdır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən işğaldan azad olunmuş ərazilərin "Yaşıl zona" elan edilməsi, "Ağıllı şəhər", "Ağıllı kənd" layihələri, aparılan abadlıq və quruculuq işləri dost ölkələrin və həmin ölkələrin şirkətlərinin regiona marağını daha da artırmışdır.

Böyük Britaniya da Azərbaycana dost ölkələrdən biridir. Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıyıb. 44 günlük Vətən müharibəsi dövründə də Böyük Britaniya obyektiv münasibət sərgilədi və münasibətlərimizə xələl gətirəcək addım atmadı.

Böyük Britaniya dünyanın ən nəhəng neft şirkətlərindən olan "BP"-nin timsalında Azərbaycana 30 mlrd dollardan çox investisiya yatırıb. Hazırda Böyük Britaniyanın 600-dən çox şirkəti Azərbaycanda fəaliyyətdədir. İndi isə işğaldan azad edilmiş ərazilərdə şəhərsalma, abadlıq və bərpa işlərinə, həmçinin bərpa olunan enerji sektoruna cəlb edilməsi Azərbaycan-Böyük Britaniya əlaqələrinin inkişafında yeni imkanlar və perspektivlər açır. İşğaldan azad olunmuş Azərbaycan ərazilərində yaşıl enerji zonalarının yaradılması, həmçinin, bu ərazilərdə bərpa olunan enerjidən istifadə işində Britaniya şirkətləri maraqlıdır. Bu əlaqələr iki ölkələr arasındakı əməkdaşlığın daha da genişləndirilməsinə xidmət edəcəkdir.

***Zümrüd BAYRAMOVA***

# Şərti sərhəddə görüş planına zidd olan
# MANİPULYASİYALAR

***Dəfələrlə şahidi olmuşuq ki, rəsmi İrəvan məhz Azərbaycan tərəfinin təkliflərinə ilk olaraq guya əhəmiyyət vermədiyini nümayiş etdirsə də, sonra bunun həqiqətən də ən doğru yol və təklif olması fonunda razılığa gəlmək məcburiyyətində qalıb. Məhz şərti sərhəddə görüş təklifinə də ermənilərin razılaşması bu baxımdan başadüşüləndir. Amma başa düşülməyən odur ki, ermənilər öz xislətlərinə uyğun olaraq, yenə də görüş öncəsi hansısa uydurmalarla çıxış edib suyu bulandırmaq ənənələrinə sadiq qalırlar və manipulyasiyalar etməyə çalışırlar.***




Sərhədin demarkasiyası məsələləri üzrə dövlət komissiyalarının işi çərçivəsində hər iki ölkənin baş nazirlərinin müavinləri, Şahin Mustafayev və Mher Qriqoryanın 30 noyabr tarixində Azərbaycanın Qazax rayonu ilə Ermənistanın İcevan rayonu arasında, ölkələr arasındakı şərti sərhəddə planlaşdırılan görüşü təqdirəlayiqdir. Amma Ermənistan tərəfinin bu görüş ərəfəsində belə yenə də hansısa manipulyasiyalara əl atması, bu fonda da əsassız və mənasız iddialar səsləndirilməsi heç də planlaşdırılan görüşə uyğun gəlmir. Görüş qabağı hansısa bir platformada əsassız, məntiqsiz, həqiqətə uyğun olmayan, yalan ittihamların irəli sürülməsi görüş üçün xoş olmayan auranın yaranmasına gətirib çıxaran axmaqlıqdır, hansıki bunu da Ermənistanın BMT-dəki nümayəndəsi Mher Marqaryan rəva bilib. "Sentyabrın 19-da Dağlıq Qarabağa genişmiqyaslı hücum uşaqlar da daxil olmaqla yüzlərlə insanın həyatına son qoyub və bütün əhalinin kütləvi şəkildə məcburi köçkünlüyünə səbəb olub", deyə ittihamla çıxış edən Marqaryanın son dərəcə həyasızlıq edərək, həqiqətdən uzaq, yalan fikirlər səsləndirməsi görüş planına da, danışıqlara da zidd manipulyasiyalara yol verildiyini təsdiq edir.

Azərbaycanın Qarabağda, öz ərazisində anti-terror tədbirləri keçirmək haqqının, hüququnun olduğunu bilə-bilə buna utanmadan, həyasızcasına "hücum" adı vermək nəyə lazım idi? Ələlxüsus da şərti sərhəddə planlaşdırılan görüş öncəsi belə məsuliyyətsiz yalan fikirlər səsləndirmək axmaqlıqdan başqa nə ola bilər? Onsuz da Ermənistanın BMT-dəki nümayəndəsinin belə sayıqlamaları heç bir fikir formalaşdıra bilməz. Çünki dünya ictimaiyyətinə bəllidir ki, Azərbaycan öz ərazilərini qanunsuz erməni silahlı dəstələrindən təmizləyib. O da bəllidir ki, erməni silahlı dəstələrinin qeyd-şərtsiz Azərbaycan ərazilərini tərk etmələri barədə BMT-nin məlum dörd qətnaməsi də var və görülən anti-terror tədbirlərinə kimsə ağız büzə bilməz. Ən azından BMT kimi bir mötəbər təşkilat, beynəlxalq qurum üçün aydın məsələdir ki, Azərbaycan həmin qətnamələrin icrasını reallaşdırıb və beynəlxalq hüququn norma və prinsplərinə heç bir hörmətsizlik etmədən bunu edib. Daha dəqiq desək, uşaqlar da daxil olmaqla, yüzlərlə insanın həyatına son qoyulduğu barədə Ermənistanın BMT-dəki nümayəndəsi Mher Marqaryanın sayıqlamaları həqiqəti əks etdirmədiyi kimi, diqqəti də cəlb edə bilməz. Diqqəti cəlb edən həmin o Marqaryanın belə ağılsız, axmaq, mənasız çıxışı və şərti sərhəddə görüş öncəsi hansısa düşüncəsiz manipulyasiyalara əl atmasıdır. Onun məqsədinin konkret olaraq, nədən ibarət olduğunu söyləmək mümkün olmasa da, ən azından niyyətinin çirkin olduğu barədə çəkinmədən danışmaq olar. Çünki heç bir ölkənin diplomatının səbəbsiz yerə belə sayıqlamalara əl atmasının qəbuledilməzliyi fonunda yenə də hansısa oyunların, hansısa manipulyasiyaların olduğu qənaətinə gəlməkdə hər kəs haqlıdır və bu da sözsüz ki, çirkin niyyətlərdən xəbər verir.

Təkcə biz yox, elə ermənilər özləri də yaxşı bilirlər ki, Ermənistanın baş naziri Nikol Paşinyan artıq dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü şifahi və yazılı şəkildə tanıyıb. Bilirlər ki, Qarabağın da daxil olması şərti ilə Azərbaycanın ərazi bütövlüyünü Ermənistan Respublikasının tam dəstəklədiyini həmin ölkənin Milli Məclisinin spikeri Alen Simonyan da bildirib. Sual doğuran odur ki, bir ölkənin baş naziri, Milli Məclisinin spikeri Azərbaycanın ərazi bütövlüyü barədə bu şəkildə bildirdiyi halda, həmin ölkənin BMT-dəki nümayəndəsi hansı ağılla belə axmaq fikirlər səsləndirə bilər axı? Mher Marqaryanın ölkəsinin baş nazirinin fikirlərini hesaba almır, yoxsa ölkəmizin ərazi bütövlüyü barədə öz axmaq qənaəti var? Bu fikirləri səsləndirməkdə heç bir məntiqə sığışmır axı. Yəni, onun dediklərindən belə çıxır ki, Azərbaycan öz ərazilərinə hücum edib, hansıki bunu səsləndirməyin nə dərəcə axmaqlıq olduğu zərrə qədər də şübhə doğura bilməz. Azərbaycan 44 günlük müharibədə ərazilərini işğaldan azad etdiyi kimi, müharibə bitdikdən sonra öz ərazilərini qonşu ölkənin qanunsuz silahlı dəstələrindən təmizləmək hüququna malikdir və bu, qeyd etdiyimiz kimi, BMT-nin məlum qətnamələri ilə üst-üstə düşür. Elə isə, Ermənistanın BMT-dəki nümayəndəsi indi nə fikirdədir və bu nə manipulyasiyadır edir? Özü də iki ölkə arasında şərti sərhəddə görüş öncəsi bu fikirlər nəyə lazım idi axı? Hər halda, bir ölkənin nümayəndəsi öz başına belə axmaq fikirlər səsləndirməsi inandırıcı görünmür və deməli, yenə də ortada hansısa çirkin niyyət var və bu, yenə də hansısa manipulyasiyadan xəbər verir.

Xatırladaq ki, ərazilərinin qanunsuz erməni silahlı dəstələrindən təmizlənməsi üçün Azərbaycan tərəfinin həyata keçirdiyi anti-terror tədbirlərindən sonra BMT missiyası iki dəfə Qarabağ iqtisadi rayonuna səfər edib. Səfərləri zaman da təkrarən əmin olub ki, həmin ərazilərdə öz qətnamələrinin icrası reallaşdırılıb və başqa heç bir qanunsuzluqdan söhbət gedə bilməz. Diqqət çəkən daha bir məqam da ondan ibarətdir ki, hər iki səfər zamanı, mülki erməni əhalisinə qarşı zorakılıq faktının olmadığı qeyd edilib. Çünki mülki ictimai infrastruktura, o cümlədən xəstəxanalara, məktəblərə, yaşayış məntəqələrinə, mədəni və dini binalara heç bir ziyan dəymədiyi qeydə alınıb. Maraqlıdır ki, bütün bunların fonunda Ermənistanın BMT-dəki nümayəndəsi hansı üzlə ittihamla çıxış edir? Hər halda, BMT kimi bir beynəlxalq qurumun zorakılıq faktının olmadığı barədə sadalanan qeydlərindən sonra onun səsləndirdiyi fikilərin mahiyyətinin nədən ibarət olduğu da quruma bəllidir. Bəlli olmayan onun bu ərəfədə, şərti sərhəddə görüş ərəfəsində niyyəti və etdiyi manipulyasiyalardır ki, bu, bütövlükdə dünya ictimaiyyətinin də, beynəlxalq qurumların da diqqətindən yayınmamalıdır.

"BMT, onun aidiyyəti qurumları və strukturları hələ də Dağlıq Qarabağ xalqı qarşısında öhdəliklərini yerinə yetirməyib", deyən Mher hansı öhdəlikdən dəm vurur və hansı əsasla, hansı haqla belə fikir səsləndirir? Dağlıq Qarabağ xalqı nə deməkdir? Dünyada belə bir xalq yoxdur axı. Olmayan bir xalq barədə, özü də BMT qarşısında tələb, "öhdəlikləri yerinə yetirmək" tələbi çox absurd səslənir. BMT kimi bir təşkilat üçün sirr deyil ki, Qarabağ xalqı ifadəsi ermənilərin uydurduqları mifdən başqa bir şey deyil. Belə bir mif uydurmaqla kimi aldatmaq fikrindədirlər? Tarixi faktlar təsdiq edir ki, erməni əsillilər Azərbaycanın Qarabağ iqtisadi rayonunda sonradan məskunlşıblar. Sözsüz ki, onların məskunlaşdırılmaları da ermənilərin məlum çirkin niyyətlərinə xidmət edib. Hətta ərazilərimizin işğal faktı, həmin işğaldan sonra ermənilərin yenidən həmin ərazilərə köçməsi də uzaq keçmişdə olmayıb ki, unudulsun. Əsrin üçdə birinə yaxın müddət ərzində erməni əsillilər Azərbaycanın Qarabağ ərazisində məskunlaşıblar, özü də bu məskunlaşmanın qeyri-qanuni şəkildə olduğu da bəllidir. Çünki onların Ermənistan pasportu daşıyaraq Azərbaycan ərazilərində məskunlaşması heç bir hüquqi normalara sığışmır. Məhz elə bu barədə də rəsmi Bakı qanuni tələblərlə çıxış edərək, onların məhz Azərbaycan pasportu daşıması, ölkəmizin vətəndaşlığını qəbul edərək yaşamaları barədə təkliflə çıxış edib. Əgər onlar bu təkliflə razılaşmayıblarsa, Ermənistana öz xoşları ilə, yaxud da qanunsuz rejimin təkidi ilə köç ediblərsə, indi də xarici ölkələrə üz tuturlarsa, bu, onların öz probleridir. Hər halda, getdikləri ölkədə də onlar Ermənistan pasportu ilə yaşaya bilməyəcəklərini dərk etmək məcburiyyətində qaldıqları zaman reallıqların nədən ibarət olduğunun fərqində olarlar. Görünür, Ermənistanın BMT-dəki nümayəndəsi bu reallığı və məqamı nəzərə almayıb, yaxud da dərk edə bilməyib.

Sözsüz ki, Mher Marqaryanın çıxışları gülünc səsləndiyi kimi, Ermənistan tərəfinin bu gülünc çıxışlar fonunda manipulyasiyaları da çox yersiz görünür. Xüsusən də Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin gözlənilən görüşü fonunda belə manipulyasiyalara heç bir ehtiyac yoxdur. Əgər həqiqətən də Ermənistan tərəfi danışıqlarda, sülh prosesində maraqlıdırsa, manipulyasiya etmək əvəzinə doğru olan yol barədə təklifləri layiqincə dəyərləndirməyə üstünlük verməlidir. Şərti sərhəddə görüş planına zidd olan manipulyasiyaların mənasız və nəticəsiz olduğu gec də olsa dərk edilməlidir. Hər halda, hadisələrin gedişi göstərəcək ki, rəsmi İrəvan bu dəfə nə fikirdədir və əgər təxribatlara, oyunlara, manipulyasiyalara son qoyub danışıqlara üstünlük verilsə, görüşün müsbət nəticələr vəd edəcəyinə zərrə qədər şübhə ola bilməz.

***İnam Hacıyev***

# Vəhşi, vəhşi Qərb...

## Yaxud, səhvlərini sıralayan Avropa Azərbaycandan nə istəyir?

***Avropa İttifaqının iç üzü açılıb. "Qoca qitə"ni idarə edənlər o qədər azğınlaşıblar ki, beynəlxalq qanunları çeynəməkdən belə çəkinmirlər. Verdikləri əmrlər, çıxardıqları qərarlar, uzaq regionda baş verən hadisələrə münasibətləri o qədər cılız, heç bir fakta söykənməyən primitiv formada olur ki, təəccübünü gizlədə bilmirsən. Yəni, Avropa dediyimiz budurmu, dəlinin də ağlına gəlmədiyini iddia etmək çıxış yoludurmu? Bu yanaşmalarla Avropa hara qədər gedəcək? Əvvəllər Avropa Birliyi və onun institutları bu qədər aktiv deyildi, münasibətlərində haradasa, bir ölçübiçi olardı, absurd qərarlardan uzaq kimi görünürdülər. Bu gün isə...***

Xatırladaq ki, Avropa Parlamenti dəfələrlə həm Azərbaycanın, həm də Ermənistanın ərazi bütövlüyünü tanıyıb. Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra ölkəmizin ərazi bütövlüyü 1991-ci il sərhədləri daxilində Ermənistan rəhbərliyi səviyyəsində də tanınıb. Yəni Qarabağ Azərbaycanın ərazisidir. Onda Avropa Parlamenti hansı əsaslarla "Azərbaycan Dağlıq Qarabağı işğal edib" cümləsini sanksiya bəhanəsi kimi işlədə bilir. Bir ölkə öz ərazisini necə işğal edə bilər? Görünür, avropalıların başı "qaçıb", ya da beyin sarsıntısı keçirib. Yox, əgər Qarabağda yaşayan ermənilərin Azərbaycan qanunlarına tabe olmaları üçün atılan addımlara Avropa "işğal" deyirsə, onda zəhmət çəkib öz içində olan separatçı çıxışlara da eyni reaksiyanı göstərsin.

Avropada Türkiyəyə qarşı aparılan uzunmüddətli kampaniyanın Azərbaycan müstəqillik əldə etdikdən sonra bizimlə davam etməsi yeni xəbər deyil. Amma bunun qondarma səbəbləri də yox deyil. Türkiyəyə və Azərbaycana qarşı dəfetmə siyasətinin arxasında bəzi dairələrin dayandığından da xəbərimiz var. Bu kampaniyada yunan-erməni lobbilərinin canfəşanlıq etdiyi aşikardır. İri şirkət sahibləri olan erməni və yunan iş adamları bəzi dairələrin dəstəyi hesabına əldə etdikləri milyardları av-





ropalı parlamentarilərin hesablarına yatırırlar. Onlar da həmin dairələrin göstərişlərinə uyğun qərarların verilməsinə nail olurlar.

### Avropa korrupsiya bataqlığında

Avropa Parlamentində korrupsiya qalmaqalı barədə çox yazılıb. Bu yaxınlarda Belçika və Almaniya polisi korrupsiya iddiası ilə bağlı birgə təhqiqat aparmaq üçün Avropa Xalq Partiyasının (AXP) Brüsseldəki qərargahında olublar. Yoxlamaların bir ucu da Almaniyanın Türingiya şəhərinə gedib çıxır. Araşdırmaların korrupsiya və rüşvətxorluqda şübhəli bilinən Almaniya Xristian Demokratlar Birliyinin Türingiya vilayəti üzrə lideri Mario Voigta qarşı yönəldiyi deyilir. Voigt 2019-cu il seçkiləri zamanı AXP-də çalışıb və müstəntiqlər onun nə qədər rüşvət aldığını və ya mənimsədiyini araşdırıblar.

Bundan əvvəl isə Avropa Parlamentinin Yunanıstandan olan sədr müavini Eva Kayli korrupsiyaya görə həbs olunub. Məsələ ondadır ki, Belçika prokurorluğunun həbs etdiyi sədr müavini Eva Keyli həm də Avropa Parlamentindəki Ermənistanla dostluq qrupunun üzvüdür. Bu qrup uzun müddət "çirkli pulların yuyulmasında" adı keçən erməni əsilli milyarderlər tərəfindən maliyyələşdirilib. Avropa Parlamentində erməni dostlarını yemləməyin xüsusi mexanizmi yaradılıb. Bu qalmaqalda Kayli ilə yanaşı daha iki deputatın da adı çəkilirdi. İtaliya, Almaniya, Fransa və Belçikadan olan deputatların bu işdə adları hallanırdı. Eva Kayli Belçikanın paytaxtı Brüsseldə cari dünya çempionatı ilə əlaqəli korrupsiya qalmaqalına görə saxlanılıb. Daha öncə isə Belçika prokurorluğu polisin böyük xüsusi əməliyyat keçirməsi, əməliyyat zamanı keçmiş Avropa Parlamentinin deputatı və Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti də daxil olmaqla 4 nəfərin saxlanıldığı barədə məlumat yayıb.

Belə məlum olur ki, Avropa Parlamentində rüşvət və korrupsiyanın kökləri daha dərindədir. Sual olunur, müstəntiqlər niyə dərinə getmək istəmirlər? Çünki, dərində daha böyük cinayətlər gizlənir, üzə çıxarsa Avropanın bütövlükdə imicinə, reputasiyasına ciddi, həm də ölümcül zərbə dəyə bilər. Amma qalmaqal getdikcə böyüyür. Faktlar üzə çıxdıqca avropalılar daha da çılğınlaşır, acıqlarını başqa ölkələrdən çıxmağa çalışırlar. Başqalarını ittiham edən



orqan öncə özü təmiz olmalıdır. Dünyanın heç bir ölkəsi korrupsiya bəlasından qurtula bilməyib. Avropada isə bu "hədd" çoxdan geridə qalıb. Avropanın qanunverici orqanı bu çirkabın içindədir.

Görünən odur ki, Avropa Parlamentinin komitəsinin Azərbaycanla bağlı sanksiya təklifləri də rüşvətlə əldə edilən bir qərardır. Avropa Fransa başda olmaqla hələ korrupsiyadan xilas ola bilmir. Onilliklər ərzində Avropada müxtəlif qurumların içinə qədər sızmış erməni və yunan lobbiçiləri Azərbaycanın əldə etdiyi uğurları, bərpa etdiyi suveren hüquqları həzm edə bilmir, reallıqlarla barışmaq istəmir.

Avropa Parlamentində baş vermiş korrupsiya qalmaqalından başqa, bir sıra Avropa ölkələrində siyasi korrupsiya faktları kifayət qədərdir. Bunlar araşdırmalar nəticəsində üzə çıxarılacaq. Amma Avropa ölkələri məsələni bir o qədər də açılmasını istəmir, lobbiçiliyin cinayət sayılmadığı barədə utopiyalar tirajlamaqla sudan quru çıxmağa çalışırlar. Məsələn, ABŞ-da bunu tam olaraq qanuni fəaliyyət hesab edirlər. Avropa üçün isə eyni vəziyyət keçərli deyil. Fransa parlamentində də varlı erməni diasporunun pulu gücünə mandat əldə edən deputatlar var. Avropa banklarında məhz siyasi elitanı ələ almaq üçün müəyyən vəsaitlərin aşkarlandığı barədə də məlumatlar dolaşır. Keçmiş sovet ölkələrindəki ənənəvi korrupsiyadan fərqli olaraq, Avropada bu cür hallar çox məharətlə və ustalıqla həyata keçirilir. Qərb mediası da korrupsiyanın girdabında çapalayır. Sifarişli məqalələrin dərci ənənəsi Avropadan gəldiyini çox adam bilir.

### Sanksiya cəhdi...

Gələk əsas məsələyə, Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsi ümumi təhlükəsizlik və müdafiə siyasətinin həyata keçirilməsi və ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsinə dair illik hesabatlar qəbul edib. Məlumata görə, Azərbaycanın "işğalçı siyasəti və Dağlıq Qarabağa əvvəlcədən planlaşdırılan hərbi hücumu" pislənib. Ümumi təhlükəsizlik və müdafiə siyasətinin həyata keçirilməsinə dair illik hesabatda Azərbaycanın həyata keçirdiyi "hücum"un nəticəsiz qala bilməyəcəyi bildirilir, həmçinin Aİ-ni "atəşkəsin çoxsaylı pozuntuları"na görə məsuliyyət daşıyan Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar tətbiq etməyə çağırır.

Sənəddə həmçinin enerji üzrə anlaşma memorandumunun dayandırılması və son hadisələri nəzərə alaraq, Azərbaycanla yeni tərəfdaşlıq sazişi üzrə danışıqların dayandırılması tələb olunur. Bundan sonrası isə Avropa Parlamentinin əsl niyyətini ortaya qoyur. Hesabat regionda təhlükəsizliyin möhkəmləndirilməsinə kömək etmək üçün Ermənistanda mülki Aİ missiyasının yaradılmasını alqışlayır və Avropa Şurasını missiyada ekspertlərin sayını artırmağa, missiyanın imkanlarını və coğrafi əhatə dairəsini genişləndirməyə və onun yerləşdirmə müddətini daha beş il uzatmağa çağırır. Həmçinin Azərbaycana eyni missiyanın öz ərazisində və "Dağlıq Qarabağ"da yerləşdirilməsinə icazə verilməsi çağırışı da var. Hesabatda Ermənistanın təhlükəsizliyi, müstəqilliyi və suverenliyinin qorunmasında Aİ-nin dəstəyi də qeyd olunur. Hesabatda "tərəflər arasında müdafiə sahəsində daha əhatəli və genişləndirilmiş əməkdaşlığın təşviq edilməsi" tələb olunur.

Görünən budur ki, Avropa Cənubi Qafqaza hamıdan tez və daha üstün formada yerləşmək istəyir. Əlbəttə, ənənəvi üsulları da unutmur, guya Ermənistanın təhlükəsizliyini təmin etmək istəyir. Yəni, özünü xilaskar kimi təqdim edir. Bəs rəsmi Bakıya qarşı Avropanın siyasəti niyə fərqlidir. Bir tərəfdən bizə təklif edir ki, mülki missiya Azərbaycan tərəfində də yerləşdirilsin, əks halda sanksiya tətbiq edəcəyi ilə hədələyir. Unudur ki, Ermənistandan fərqli olaraq Azərbaycan müstəqil xarici siyasət yürüdüb, ərazilərində suveren hüququnu heç kimin dəstəyi olmadan, hətta BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini belə özü icra edib. Bu, Avropanı qıcıqlandırır, "sözə baxmayan" Azərbaycanı cəzalandırmaq istəyir.

Avropa İttifaqı Avropa Sülh Fondu çərçivəsində Ermənistan Silahlı Qüvvələrinə dəstək imkanlarını araşdıracaq. Bu barədə Aİ-nin Ermənistandakı nümayəndə heyətinin Aİ Xarici Fəaliyyət Xidmətinin nümayəndə heyəti və Avropa Komissiyası nümayəndələrinin İrəvana səfərinin yekunları üzrə dərc olunmuş bəyanatında deyilir. Ermənistanda keçirilən görüşlərdə təhlükəsizlik və müdafiə sahələrində dialoqun və əməkdaşlığın davam etdirilməsinə qarşılıqlı maraq təsdiq edilib. Enerji, nəqliy-



yat və rəqəmsal texnologiyalar kimi sahələrdə tərəfdaşlığın və islahatların, o cümlədən investisiyalar vasitəsilə daha da gücləndirilməsi yolları müzakirə edilib.

### Ermənistana yerləşmək planı

Diqqət edin, Avropa uzun müddət sovet-Rusiya təsirində qalmış Ermənistana tam olaraq yerləşmək üçün humanitar metodlarını işə salıb. Qarabağdan köçən ermənilərin "təcili ehtiyaclarını ödəmək və onların inteqrasiyası", eyni zamanda uzunmüddətli perspektivdə Ermənistanın sosial və iqtisadi dayanıqlığını yaxşılaşdırmaq üçün investisiyalardan istifadə haqqında fikir mübadiləsi aparır. Azərbaycanı hədəfdə saxlayıb, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması prinsiplərinə əsaslanan 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında iki ölkə arasında münasibətləri normallaşdırılmaq istəyir. Hər halda üzdə olanlar budur, amma alt qatda Avropanın məkrli niyyətləri yatır. Müstəmləkəçilik siyasətini yeni forma və metodlarla, "müasir dövrün çağırışlarına uyğun" üsulla davam etdirir. Ermənistana büdcə dəstəyi olaraq 10,45 milyon avro humanitar yardımla yanaşı, 15 milyon avro ayıracağını daha əvvəl bildirilmişdi. Uzunmüddətli perspektivə gəlincə, Aİ mühüm infrastruktura və digər layihələrə investisiya üçün 2,6 milyard avro nəzərdə tutan İqtisadi və İnvestisiya Planını təkrarlayıb.

Digər tərəfdən ABŞ-ın siyasətində də "qoca dostu"nun addımlarını təkrarlamaq var. ABŞ Ermənistan və Azərbaycan arasında görüşlər üçün öz "xeyirxah işlərini" təklif edib. Təbii ki, bu "xeyirxahlıq"dan kimin və necə yararlanacağı gizli qalmayacaq. Son bir il ərzində Birləşmiş Ştatlar Ermənistanla Azərbaycan arasında danışıqlarda kimin tərəfində dayandığı heç kimə sir deyil. Dövlət katibi Blinkenin tərəflərlə apardığı müzakirələrdə mövqeyi bütün qaranlıq məqamları üzə çıxarıb. Vaşinqton erməni separatçılarını işğaldan azad edilmiş Qarabağa yenidən qaytarmağa çalışır. Əslində isə regionda artıq yaranmış sabitliyi pozmağa çalışır, müharibə istəyir, vəhşi xislətini gizlətmir. Nahaq yerə deməyiblər, vəhşi, vəhşi, vəhşi Qərb...

**V.VƏLİYEV**

# Sosial dəstək proqramının uğurlu icrası

## Şəhid ailələri və əlillərə daha 250 mənzil təqdim edildi

Azərbaycanın ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda edən qəhrəmanlarımıza, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir. Ölkəmizdə şəhidlərə və onların ailələrinə, əlillərə olan münasibət dövlətimizin







məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. Bu dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiqləyir.

Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Şəhid ailələrinə və müharibə əlillərinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onların sosial təminatı istiqamətində ardıcıl işlər görülür.



Görülən işlərin davamı olaraq, şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə Bakı şəhərinin Bibiheybət qəsəbəsindəki yeni yaşayış binasından 250 mənzil təqdim edilib. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlə təminatı proqramı 5 dəfə genişlənib. Dövlət başçısının tapşırığı ilə bu il ən azı 1500 mənzil və fərdi evin verilməsi işləri aparılır. Hazırda təqdim edilən mənzillər də daxil olmaqla şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara bu il artıq 1100, postmüharibə dövründə 5600, ümumilikdə ötən dövrdə 14 400 mənzil və fərdi ev verilib. Ölkə Prezidentinin Sərəncamı ilə 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunur. Həssas əhali qruplarından olan şəxslərin, xüsusilə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan vətəndaşları daim diqqət və qayğı ilə əhatə olunur.

### MƏNZİL TƏMİNATI PROQRAMI 5 DƏFƏ GENİŞLƏNİB

Prezident İlham Əliyevin tapşırığına əsasən, şəhid ailələri və müharibə əlillərinin mənzil təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib. 44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz də avtomobillə təmin edilirlər. Müharibə ilə əlaqədar əlilliyi olanlara postmüharibə dövründə 324, ümumən ötən dövrdə 7500-dən çox avtomobil verilib. Həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış hərbçilərimizin ailələrinin, habelə həmin tədbirlər zamanı yaralanmış hərbçilərimizin də sosial dəstəklə təminatının hazırda əsas fəaliyyət istiqamətlərindən biridir və bu istiqamətdə müvafiq işlər aparılır.

"Şəhid övladlarının anaları ilə birgə səyahət və təlim proqramı", "Qəhrəmanlarımız üçün yaşıl işıq" sosial-psixoloji dəstək layihəsi də həyata keçirilir. Vətən müharibəsi ilə əlaqədar əlilliyi olan daha 50-dək şəxs peşə-əmək reabilitasiyasına cəlb edilib. Peşə Əmək Reabilitasiyası Mərkəzində onlar üçün müxtəlif peşələr üzrə kurslar təşkil olunub. Bir qrupu artıq kursları bitirərək müvafiq peşə şəhadətnamələri alıblar. Digərlərinin peşə-reabilitasiya kursları davam edir. Peşə kursu keçən müharibə ilə əlaqədar əlilliyi olan şəxslərdən 7 nəfəri qardaş Türkiyədə əlilliyi olan şəxslər üçün təşkil olunan peşə dərnəklərində təcrübə kurslarında da iştirak ediblər. Müharibə ilə əlaqədar əlilliyi olan daha 2 müdavimin də gələn ay Türkiyəyə təcrübə kursuna göndərilməsi nəzərdə tutulub.

Bütün bunlarla yanaşı, şəhid ailələri üzvləri və müharibə veteranları olan 103 min şəxsə 115 min aylıq sosial ödəniş təyin olunub, 3 891 şəxsə sığorta ödənişi edilib. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 234 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara yönələn sosial ödənişlər hər il artırılıb, müharibə veteranlarına aylıq təqaüd təyin edilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçıları olan 11 min nəfərə 49,5 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib.

### SON NƏSİL PROTEZLƏRLƏ TƏMİNAT PROQRAMI

Statistik rəqəmlərə nəzər saldıqca dövlətimiz tərəfindən bu kateqoriyadan olan insanlara ayrılan diqqət və qayğını görmüş oluruq. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 19,6 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,1 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. Vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyalara aid 93,3 min şəxsə xidmətlər göstərilib və s.

Postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 124 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 304 min xidmət göstərilib. 44 günlük Vətən müharibəsində yaralanaraq əzalarını itirmiş qazinin, müharibə əlilinin yüksək texnologiyalı son nəsil protezlərlə təminatı proqramı uğurla icra olunub. Müharibə ilə əlaqədar əlilliyi olan 1990 şəxs 43,1 min reabilitasiya vasitəsi, o cümlədən 439 şəxs 458 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Bütün bunlar bir daha təsdiqləyir ki, respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə yenilməz rəşadət və misilsiz vətənpərvərlik nümunəsi göstərən vətən oğullarımıza və onların ailələrində dövlət qayğısı və diqqət davamlıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***





# ”Ulu Öndərin müdrik siyasəti - uğurlu inkişafa aparan tarixi yol”

## Salyan rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib

**“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Salyan rayon təşkilatı noyabrın 30-da ”Ulu Öndərin müdrik siyasəti - uğurlu inkişafa aparan tarixi yol” mövzusunda tədbir keçirib.**

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.

Sonra rayon Heydər Əliyev Mərkəzində Ümummilli Liderin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara və Ulu Öndərin anadan olmasının 100-cü ildönümü münasibətilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təşkil edilmiş ”Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Mədəniyyəti 100” adlı sərgiyə baxış keçirilib. Salyan Rayon İcra Hakimiyyətinin akt zalında davam edən tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Salyan rayon təşkilatının sədri Elmar Əhmədov müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin böyük, mənalı və şərəfli həyat yolu, zəngin və çoxşaxəli irsi haqqında danışıb. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının yaradılması ilə Azərbaycanın xilasının, tərəqqi yoluna çıxmasının əsası qoyulub. Yeni Azərbaycan Partiyasının keçdiyi 31 illik şərəfli yolda ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynamaqla yanaşı, müasir dövrdə beynəlxalq aləmdə tanınan nüfuzlu partiyalar sırasında olması dahi şəxsiyyətin uzaqgörən, müdrik siyasətinin nəticəsidir.

Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov Azərbaycan tarixinin bütöv bir dövrünün dahi şəxsiyyətin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlı olduğunu deyib. Onun sözlərinə görə, Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. Bu gün Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dünyada güclü və nüfuzlu dövlətə çevrilib. Diqqətə çatdırıb ki, Ümummilli Liderin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz hərtərəfli inkişaf etməkdədir.

Azərbaycan Silahlı Qüvvələrinin general-mayoru, Vətən Müharibəsi Qəhrəmanı Zaur Zeynalov qeyd edib ki, müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz Vətən müharibəsində bütün dünyanı heyrətə salan böyük Zəfər çaldı. Ölkənin ərazi bütövlüyü, dövlətimizin suverenliyi tam bərpa olundu.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki müstəsna yeri və rolundan bəhs edib. Qeyd edib ki, Ulu Öndər xalqımızın xilaskarı, müasir müstəqil Azərbaycan dövlətinin banisidir. Məhz onun uzaqgörənliyi, strateji düşünmə bacarığına əsaslanan idarəçilik modeli qısa zaman kəsiyində ölkəmizin dayanıqlı və davamlı inkişafı üçün zəmin yaradıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizin davamlı inkişaf etdiyi, Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycanın yeni uğurlar əldə etdiyi xüsusi vurğulanıb.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, bütün həyatını xalqının xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Heydər Əliyev erası Azərbaycanda müstəqillik, quruculuq, inkişaf, sabitlik, tərəqqi dövrüdür. Müasir mərhələdə Azərbaycanın inkişafı da məhz Ulu Öndər tərəfindən təməli qoyulmuş iqtisadi, siyasi, mədəni, intellektual əsaslarla bağlıdır.

YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov Ulu Öndərin nəsillərə örnək olan həyat yolu, Azərbaycan dövlətinin möhkəmləndirilməsi və dünyada öz layiqli yerini tutması istiqamətində fəaliyyəti barədə çıxış edib. O, Ulu Öndərin Azərbaycanın tarixinə, mədəniyyətinə, elm və təhsilinə, eləcə də digər sahələrə verdiyi yüksək qiymətdən söz açıb. Vurğulanıb ki, bu gün Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, dinamik sosial-iqtisadi inkişafı, dünya birliyində öz layiqli yerini daha da möhkəmləndirməsi məhz Ulu Öndər Heydər Əliyevin ideyalarının nəticəsidir.

Ərazi partiya təşkilatının sədr müavini, partiya fəalı Emin Ağayev və şəhər 2 saylı tam orta məktəbin müəllimi Aynur Hüseynova çıxışlarında bildiriblər ki, Ulu Öndərin müstəqillik illərində ölkəmizə rəhbərliyi dövrü Azərbaycan xalqının tarixi yaddaşına sabitlik və inkişaf mərhələsi kimi həkk olunub. Bu gün müasir Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edərək zirvələr fəth edir.

Sonra tədbirdə rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup gənc partiya fəalına fəxri fərman, YAP sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim edilib. Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

# Bakıda parkinqlər qazanc, yoxsa problemin həlli üçündür?

## *ŞƏHƏR SAKİNLƏRİ GİLEYLƏNDİ*

***Məlumdur ki, nəqliyyat vasitələrinin parklanmasına görə Azərbaycan Yerüstü Nəqliyyat Agentiyi (AYNA) ilə Nazirlər Kabineti yeni ödəniş qaydaları təsdiq edib. Belə ki, Bakı şəhərinin mərkəzində parklanma üçün 1 saata 1 manat təyin olunmuşdur. Bəs, bu yeni qərara sakinlərin münasibəti necədir? SİA bu mövzuda paytaxt sakinləri arasında sorğu keçirib.***

**Şəhər sakini Kənan Yusifov:** ”Mənə elə gəlir ki, bu qayda bir-iki saatlıq maşın saxlamaq üçün yaxşıdır, amma iş saatları üçün 7-8 manat heç kimin cibinə uyğun deyil. Nazir, nazir müavinləri üçün uyğun gələr, onların da öz qarajları olar. Bu mövzuda tədbir görülsə, yaxşı olar. Pulsuz olmasın, amma qiymət aşağı olsa, daha yaxşı olar. 1 manat bahadır, 50 qəpikdən başlasa, pis olmaz. Məncə, vaxt artdıqca, qiymət aşağı düşməlidir. 1 saatı 1 manatdırsa, 2 saat üçün 1 saat 70 qəpikdən başlasın. 3 saatı 50 qəpikdən, 4 saatı 30 qəpikdən olsun. Elə olsa, hamının cibinə uyğun olar”.

**Şəhər sakini Vüqar Heydərov:** ”Qiymətlər həddindən artıq bahadır. Düşünürəm ki, normal olmalıdır. Pulsuz olmağının da əleyhinəyəm. Ödənişsiz olan vaxtlarda maşın saxlamaq qeyri-mümkün idi. İndi ödənişli olduğu üçün hər kəs maşın saxlamır. Kimin ki işi var, işlə əlaqədar ehtiyacı olan saxlayır. Ödənişli olsun, amma qiymətlər uyğun olsun. Söz yox, mən çox istifadə etmirəm, maksimum bir saat istifadə edirəm. Elə insan var ki, 8 saat dayanır, o zaman həddindən artıq çoxdur. Standart qiymət olsa, daha yaxşı olar. Əvvəlki qaydada ümumi saxlamaq üçün 1-2 manat ödəyirdik. O daha yaxşı idi”.

**Şəhər sakini Mehriban Dariyaxova:** ”Pulsuz olması daha yaxşıdır. Əslində, ”Azparkinq”i niyə bəyənirəm. Haradasa saxlamaq istəyəndə yer tapa bilmirik. Amma burada belədir ki, gəlib telefonla 15 dəqiqə, 1 saat yer vururuq, sonra gedirik. 8-10 saat istifadə edən sürücülər üçün də münasib olar”.

**Şəhər sakini Bəhlul Abdullayev:** ”Ödənişli olması yaxşı oldu. Çünki mənim beş, on dəqiqə vaxtım olur, şəhərin mərkəzində yer tapa bilmirəm. Ödənişli olanda bilirsən ki, yer var. Qiymətlər də yaxşıdır, sıxıntı yoxdur.”

**Şəhər sakini Mirzəli Həbibov:** ”Hər bir iş yerinin öz parkinq yeri olmalıdır. İşi olmayan şəxslər də saxlayıb yer zəbt edirdi, gəlib yer tapa bilmirdin. Ödənişli olmasının yaxşı tərəfi odur. Belə daha doğru oldu. İş yerlərinin isə hərəsinin parkinq yeri olmalıdır ki, işə gələnlər parkinq edə bilsin”.

**Şəhər sakini İskəndər Qurbanov:** ”İş yerlərinin işçiləri üçün ödənişsiz olsa yaxşı olar. Azərbaycanda bunun üçün imkan var. Çox gözəl olar. Mənim fikrim budur. Mən Krosnoyarsk şəhərində yaşayıram. Orada parkinq var. Burada kasıb da var, varlı da. Havayı olsa, daha yaxşı olar.

**Şəhər sakini Bəhruz Əliyev:** ”Mən 4 saat maşını saxlamışam, 4 manat pul ödəmişəm. Bilmirdim saxlayanda. Təbii ki, düzgün deyil. Heç olmasa, bütün günü 2 manat olsun. İş yerlərinin işçiləri üçün isə ödənişsiz olmalıdır. İş yerləri üçün də ödənişli olsa, 5-10 manat parkinqə versə, qazancı hara gedəcək? Benzinə, yoxsa parkinqə gedəcək? Mənim fikrimcə, düzgün deyil”.



**Şəhər sakini Qulam Süleymanov:** ”Parkinq ödənişsiz olmasa da, qiymətində işləyən insanlar üçün fərq olmalıdır. Məsələn, mən mağazada işləyirəm. Mağaza bizimdir. Maşını bu yerdə 12 saat saxlayırıq, 12 manat ödəyirik. Ən azından bunun aylığı belə ola bilər”.

**Şəhər sakini Mübariz Novruzov:** ”Parkinq hamı üçün ödənişsiz olmalıdır. Məgər harada maşın saxladınsa, orada pul ödənməlidir? Nə qədər əməkhaqqı, pensiya verirlər ki, parkinqin saatını 1 manata qoyublar. Belə bir şey dünyanın heç bir yerində yoxdur”.

***Ayşən Vəli***

# Sərhəd tanımayan Azərbaycan-Türkiyə: əbədi qardaşlığa, birliyə doğru

## Prezident İlham Əliyevin Azərbaycanın Kahramanmaraşda tikinti işləri aparması haqqında sazişi təsdiqləməsi bu qardaşlığın parlaq təzahürüdür



***2023-cü il sentyabrın 25-də Naxçıvan şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi" təsdiq edilib.***

### TÜRKİYƏ VƏ AZƏRBAYCAN LİDERLƏRİNİN QARDAŞLIĞI, İKİ DÖVLƏT BİR YUMRUQ HƏMRƏYLİYİ BİRLİYİ, DAR GÜNDƏ, XOŞ GÜNDƏ BİR YERDƏ OLMASI SARSILMAZ BİRLİYİNİN ƏYANİ TƏZAHÜRÜDÜR

Bəli, bu gün Türkiyə və Azərbaycan liderlərinin qardaşlığı, iki dövlət bir yumruq həmrəyliyi birliyi, dar gündə, xoş gündə bir yerdə olması sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Bu, sərhəd tanımayan qardaşlıq birliyidir. Və hər iki qardaş dövlətlərin liderləri və xalqə bir daha dünyaya nümayiş etdirdi ki, bu sarsılmaz qardaşlıq birliyi təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələrinin təsdiqidir və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar, onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur! Çünki Azərbaycan xalqı bu sarsılmaz birliyin qüdrətinə 44 günlük şanlı Vətən müharibəsində gördü və bütün dünya bir daha şahid oldu. Və qələbədən də sonra Türkiyə həmişə olduğu kimi, yenə də haqq işimizi müdafiə edərək Qarabağın azadlığa qovuşdurulmasında Azərbaycana həm mənəvi, həm də siyasi dəstək oldu. Həmin dövrdə nə qədər beynəlxalq təzyiqlərlə qarşılaşsa da, qardaş ölkə bu mövqeyindən bir addım da geri çəkilmədi, daim Azərbaycanın yanında oldu.



### NÖVBƏTİ DƏFƏ İKİ QARDAŞ ÖLKƏNİN LİDERLƏRİ HƏMRƏYLİYİNİ, "BİR MİLLƏT, İKİ DÖVLƏT" OLDUĞUNU NÜMAYİŞ ETDİRDİ

Fevralın 6-da qardaş Türkiyədə baş verən dəhşətli zəlzələ nəticəsində çoxlu sayda insan tələfatının olması ölkəmizdə də böyük hüznlə qarşılandı. Qardaş ölkədən gələn acı xəbər Azərbaycan xalqını və dövlətini dərin kədərə boğdu. Azərbaycan Prezidenti İlham Əliyev fevralın 6-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını bildirdi. Prezident İlham Əliyev Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı çatdırdı, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirdi. Azərbaycan Prezidenti onu da vurğuladı ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır. Bu bir daha iki qardaş ölkənin liderlərinin həmrəyliyinin, "bir millət, iki dövlət" olduğunun nümayişi idi: "Mən əziz qardaşım, cənab Prezidentə telefonla başsağlığı vermək üçün zəng edəndə dedim ki, bütün varlığımızla biz Sizinlə bir yerdəyik və bilirsiniz ki, durmadan heyətlər göndərilir. Eyni zamanda, həkimlər, xilasedicilər, könüllülər göndərilir və göndəriləcəkdir. Çox böyük bəladır, böyük faciədir. Günahsız insanlar həlak olublar, yaralanıblar. Bilirsiniz ki, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə".

Həmçinin, Azərbaycanın Birinci vitseprezidenti Mehriban Əliyeva da sosial mediada paylaşım edərək Türkiyənin cənubşərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladığını bildirdi. Faciə zamanı həlak olanlara rəhmət diləyən, onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verən, yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayan Mehriban xanım Əliyeva "Türkiyə xalqının kədəri bizim kədərimizdir. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!", - deyə qardaş Türkiyəyə dəstəyini ifadə etmişdir.

### "TÜRKİYƏDƏ BƏRPA İŞLƏRİNƏ DƏ QOŞULMAĞA HAZIRIQ"

Bəli, dahi şəxsiyyət Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir!" şüarı həm də dövlət siyasətinə çevrildi və Azərbaycanın istiqlala qovuşması ilə iki qardaş ölkə arasındakı mənəvi tellər siyasi, iqtisadi müttəfiqliklə elə bir səviyyədə möhkəmləndi ki, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət!" kimi dahiyanə kəlamı yüzillik birliyi ifadə edən əbədi möhür oldu. Və bu gün biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, istər Azərbaycanın, istərsə də Türkiyənin xoö günlərində də, çətin günlərində də bir-birinin yanında olub. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. Və bu 44 günlük İkinci Qarabağ müharibəsinin Qələbə Zəfərində iki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".

"Əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq. Ancaq bu, inanılmaz dərəcədə böyük faciədir",-deyən dövlət başçımız söyləmişdir ki, hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır: "Yenə də deyirəm, həm Türkiyədən, həm Azərbaycandan, həm digər ölkələrdən gələn xilasedicilər çox böyük iş görürlər. Əlbəttə ki, burada əsas yük və mənəvi yük Türkiyə hökumətinin üzərinə düşür. Mənim qardaşım hörmətli Prezident dərhal bütün göstərişləri verdi, bütün nazirləri fəlakət zonalarına göndərmişdir və tam əminəm ki, güclü və qüdrətli Türkiyə dövləti bu çətinliyi də aşacaq və tezliklə qurtarma, arama işlərinin aparılmasında öz səylərini davam etdirəcək. Ondan sonra təbii ki, bərpa işlərinə də biz qoşulmağa hazırıq. Yəni, Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir.

Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz!

Bir sözlə, iki güclü ölkənin liderləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin dəmir siyasəti daha da möhkəmlənəcək, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq Qarabağ Azərbaycandır! Azərbaycan-Türkiyə "Bir millət, iki dövlətdir!".

Bu gün bir millət, iki dövlət - Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, müttəfiqliyi tarixindəki ən yüksək zirvəyə yetişib. İndi Azərbaycan və Türkiyə bütün beynəlxalq layihələrdə birgə iştirak edir, xoş gündə də, dar gündə də bir-birinin yanında olur, dayağını, dəstəyini göstərir. Bütün çətinliklərə, problemlərə qarşı çiyin-çiyinə mübarizə aparır və birgəliyin verdiyi əzmlə, güc ilə hər zaman qalib gəlir, bundan sonra da Azərbaycan Türkiyə QALİB OLARAQ GÜCLƏNƏCƏK!!!

***RƏFİQƏ KAMALQIZI***

# Bizi Qarabağ və Şərqi Zəngəzura aparan yollar

*Dövlət başçısının Sərəncamına əsasən, Suqovuşan-Kəlbəcər-Ağdərə-Ağdam avtomobil yolu yenidən qurulacaq*

İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl görülən işlər çərçivəsində yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar əsasında yol infrastrukturunun təzələnməsi daha da sürətləndirilir. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin "Suqovuşan-Kəlbəcər (9 km)Ağdərə-Ağdam avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, otuz üç kilometr uzunluğu olan Suqovuşan?Kəlbəcər (9 km)-Ağdərə-Ağdam avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 4,5 milyon (dörd milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Rayonlar, kəndlər və qəsəbələrarası avtomobil yolu layihələrinin icrası uğurla həyata keçirilir.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlər də bu sıradadır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil magistralının tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 14 metrdir. Layihəyə əsasən, yolun 6,7 kilometrliyində "Qarğabazarı" adlanan ərazidən keçən hissəsində biraşırımlı avtomobil körpüsü inşa olunub. Körpünün uzunluğu 18 metr, eni isə 21 metrdir.

### YENİLƏNƏN ŞƏHƏR, KƏND VƏ QƏSƏBƏLƏR: MÜASİR YOL İNFRASTRUKTURU

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Füzuliyə səfəri çərçivəsində Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlini qoyulması bu ərazilərdə yol infrastrukturunun təzliklə qurulacağından xəbər verir. 2021-ci ilin oktyabrında təməli qoyulan və inşası sürətlə davam edən Ağdam-Füzuli avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır. Bərdə-Ağdam avtomobil yolunun davamı olan bu yol Ağdam, Ağcabədi, Füzuli rayonlarının ərazisindən keçir. Uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla, birinci texniki dərəcəyə uyğun inşa edilir.






Yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yolboyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.

Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətin məntiqi nəticəsidir. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. Bu gün həqiqətən də Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. İstər yeni sosial iaşə obyektlərinin, istərsə də digər infrastrukturların tikilməsi və yenilənməsi insanların sosial rifahının yüksəlişinə xidmət göstərir.

İnkişaf və tərəqqi dövrünü yaşayan Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat ölkənin əsas inkişaf göstəriciləridir.

### SUQOVUŞANDA YENİ HƏYAT

Sevindirici haldır ki, Azərbaycanın işğalçı Ermənistan üzərində parlaq qələbə qazanmasından sonra qısa bir zamanda azad olunan ərazilərimizdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verildi. Reallaşacaq layihələr işğaldan azad edilmiş rayon, kənd və qəsəbələrin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. İrimiqyaslı layihələr sırasında beynəlxalq hava limanları, "yaşıl enerji" zonasının yaradılması məqsədilə pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verilməsi və s. ərazilərdə aparılan abadlıq quruculuq işləri Böyük Qayıdışın təntənəsidir. Suqovuşanda təkcə yol infrastruktu deyil, abadlıq-quruculuq işləri də davam etdirilir.

Görülən işlərin davamı olaraq "Azərişıq" ASC tərəfindən Azərbaycanda ilk dəfə Tərtər rayonunun Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq müasir izolyasiyalı, kənar təsirlərdən mühafizəli və istismar xərcləri daha az olan kabel xəttinin təqdimatı, Suqovuşan qəsəbəsində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışı olub. Xüsusi olaraq qeyd etməliyik ki, işğaldan azad edilən ərazilərdə hərbi hissələrin açılması, ən müasir texnikalarla təchizatı Azərbaycanın hərbi təhlükəsizliyinin xüsusi diqqətdə saxlanılmasının göstəricisidir. Suqovuşanda açılışı olan hərbi hissənin ərazisində nəzarət-buraxılış məntəqəsi, qərargah binaları, əsgər yataqxanaları, tibb məntəqəsi, qazanxanalar, mağaza, 174 nəfərlik yeməkxana binası yaradılıb. Hərbi hissənin qərargah binasında hərbçilər üçün bütün zəruri avadanlıqla təchiz edilən iş otaqları var. Əsgər yeməkxanası da müasir səviyyədədir. Bir sözlə, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb.

### AZƏRBAYCANIN İQTİSADİ GÜCÜ, DİNAMİK İNKİŞAFI

44 günlük Vətən müharibəsində 30 ilə yaxın zamanda erməni işğalı altında olan torpaqlarımız azad edildikdən sonra torpaqlarımızda aparılan abadlıq-quruculuq işləri ilə yanaşı, Azərbaycanın tarixi adları özünə qaytarılır, dini-tarixi abidələrimiz təmir və bərpa olunur.

Tarixdən bəllidir ki, 1969-cu ilin iyun ayında Basarkeçər rayonunun adı dəyişdirilərək Vardenis qoyulmuşdur. Bu ad Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə bərpa edildi. 2020-ci ilə qədər Madagiz adlanmış Suqovuşanın da tarixi adı Prezident İlham Əliyev tərəfindən bərpa edildi. Azərbaycan torpaqlarını işğaldan azad etdiyi kimi, toponimlərini də, tarixi-mədəniyyət abidələrini də bərpa və təmir edir. İşğaldan azad olunmuş ərazilərimizdə hazırda geniş quruculuq işləri aparılır, yeni məscidlər tikilir. Onlardan biri də Suqovuşan qəsəbəsində təməli qoyulan məsciddir. Ümumi ərazisi 0,6 hektar olan kompleksə məscid binası, köməkçi bina, dəstəmaz otağı və avtodayanacaq daxildir. İki mərtəbədən ibarət olacaq məscid binasının uzunluğu 16,8 metr, eni isə 11,2 metr təşkil edəcək. Burada kişilər və qadınlar üçün ibadət zalının olması planlaşdırılır. Layihəyə əsasən, məsciddə eyni vaxtda 110 nəfərin ibadət etməsi üçün şərait yaradılacaq.

Təbii ki, Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı qeyd etdiyimiz bu və ya digər layihələrin reallaşmasına imkan verir. 30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir. İşğaldan azad olunan və üçrəngli bayrağımız dalğalanan ərazilərimizdə müasir infrastruktur yaradılır və yollar bizi Qarabağa və Şərqi Zəngəzura aparır.

***Zümrüd BAYRAMOVA***



## "Bu şəxslər əmlak və sadələşdirilmiş vergi ödənişindən azad olunacaqlar"

*MİLLƏT VƏKİLİ AÇIQLADI*

"Azərbaycanda məşğul əhalinin sayı 4,9 milyon nəfər təşkil edir ki, onun da təxminən 36-38 faizi kənd təsərrüfatı sahəsində çalışır. Azərbaycanın digər Qafqaz ölkələri ilə müqayisədə kənd təsərrüfatı sahəsində cəlbediciliyi daha yaxşıdır və bunun da səbəbi həmin sahəyə dövlətin verdiyi güzəştlərdir. Belə ki, 1999-cu ildən kənd təsərrüfatı sahəsi torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azaddır. Aqrar sahədə güzəşt müddəti 2024-cü ilin yanvar ayında başa çatsa da hökumət vergi azadolmalarını yenidən 3 il artırmaq qərarındadır. Eləcə də kənd təsərrüfatı məhsullarının istehsalçıları istehsal etdikləri (o cümlədən sənaye üsulu ilə) məhsulların satışına görə, dövriyyələrindən ƏDV ödəməkdən azad olunub. Bundan başqa, kənd təsərrüfatı sahəsində çalışan şəxslər əmlak və sadələşdirilmiş vergi ödənişindən də azad olunacaqlar. Bütün bunlar kənd təsərrüfatında məşğulluq və cəlbediciliyi artırır". Bu barədə SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov bildirib.

Millət vəkili qeyd edib ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonları zəngin iqtisadi potensiala, o cümlədən, münbit torpaq ehtiyatlarına malikdir: "Rəsmi məlumatlara əsasən, 1980-ci illərdə bu bölgədə 139.8 min hektar əkilmiş sahə mövcud olub. Əkinlərin strukturunda taxıl sahələri və üzümlüklər üstünlük təşkil edib, əkilmiş sahənin 55%-i taxıl məhsullarının, 35%-i üzümlüklərin payına düşüb. Həmin dövrdə Qarabağ və ətraf rayonlar ölkə üzrə taxıl istehsalının 13.9%-nə, üzüm istehsalının isə 25.5%-nə malik olub. Yaxın perspektivdə bu bölgədə ən azı 232 min hektar sahədə əkinlərin olacağı proqnozlaşdırılır ki, bu da ölkə üzrə bitkiçilik məhsullarının istehsalının təxminən 12-15 faiz artımına səbəb olacaqdır. Bundan başqa ənənəvi olaraq Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında 1980-ci illərdə 321 min baş iribuynuzlu heyvan və 1.1 milyon baş xırdabuynuzlu heyvan mövcud olub. Perspektiv dövrdə isə bu sayın müvafiq olaraq iribuynuzlu heyvanlar üzrə 430 min başa və xırdabuynuzlu heyvanlar üzrə 1.6 milyon başa çatdırmaq imkanları var. Hazırda bu ərazilərdə heyvandarlıq təsərrüfatlarının yaradılması işləri də davam etdirilir. Həmin bölgədə təqribən 45 min ton ət və 240 min ton süd istehsalının olacağı proqnozlaşdırılır ki, bu da işğaldan azad edilmiş ərazilər ölkə iqtisadiyyatı və ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayacaqdır".

A.Hüseynov vurğulayıb ki, artıq bu ərazilərdə taxılçılıq, o cümlədən üzümçülük, meyvəçilik, fındıqçılıq sahələrinin inkişaf etdirilməsi, heyvandarlıq təsərrüfatlarının yaradılması üçün işlərə başlanılıb: "Türkiyə, İsrail və digər ölkələrlə bu layihələrin əsası qoyulub. Kəlbəcər və Laçında arıçılıq təsərrüfatları yaradılıb. "Dost Aqropark" layihəsi artıq öz müsbət nəticələrini verməkdədir. Dövlət bu ərazidə çalışan fermerlərə və kiçik, fərdi sahibkarlara, vətəndaşlara həm dəstək göstərir, subsidiya verir, həm də vergi və sosial güzəştlərlə əhatə edir. Bu da öz növbəsində gələcəkdə ölkəmizin kənd təsərrüfatı məhsullarının xarici idxal asılılığından azad olmasına öz müsbət təsirini göstərəcəkdir".

***Rəşid Qarayev***

# Süni kirpiklərin dəhşətli fəsadları - KOR EDİR

**Qadınların ziyafət makiyajlarında tez-tez istifadə etdiyi taxma kirpiklərin uzun müddət istifadə edilməsi göz infeksiyalarına və bir çox narahatlığa səbəb ola bilər. SİA bu kipriklərin zərərləri ilə bağlı araşdırma edib.**

İlk olaraq qeyd edək ki, bu gün bir çox qadınlar bu kipriklərin 1-2 ay müddətində qalıcı olanından da etdirir. Bu halda onların süni kirpikləri 1-2 ay müddətində uzun qalır. Amma unutmayın ki, demək olar ki, hər qadının tez-tez istifadə etdiyi bu süni taxma kirpiklər uzun müddət istifadə edildikdə gözlərə çox zərər verə bilər.

Taxma kirpiklərin bilinməyən zərərləri

Xüsusilə də bu kirpiklərə müntəzəm qulluq edilmədikdə, göz qapaqlarının iltihabından tutmuş ağrıya, şişməyə və infeksiyaya qədər bir çox fərqli riskə səbəb ola bilər. Çünki kirpiklər gözümüzü xarici mühitlərdən qoruyan, tozdan və küləkdən qurumasına mane olan qalxandır.

Məşhur türk göz həkimi olan Sevil Karaman, kirpik yapışdırıcılarının tərkibində olan allergen formaldehid maddəsinin allergik reaksiyalar, ağrı, qaşınma, qızartı, şişlik və müvəqqəti görmə itkisinə səbəb ola biləcəyi ilə bağlı qadınları xəbərdarlıq edib. Həkim, süni kirpiklərlə bağlı soruşulması lazım olan ilk şeyin yapışqanın tərkibi olduğuna diqqət çəkərək, "Keçmişdə bu yapışqanların bəzilərində allergen formaldehid var idi. Allergik reaksiya, ağrı, qaşınma, qızartı və şişkinliyə səbəb olan bu tərkib hissəsi görmə qabiliyyətinin zəifləməsinə səbəb ola bilər.

Başqa bir risk, saxta kirpiklərin orijinal kirpiklərə və gözə verəcəyi zərərdir. Məlumdur ki, təbii kirpiklər sürtünmə olduqda qırılır. Hətta süni kirpik istifadə edildikdə təbii kirpik follikuluna daimi ziyan vurulur. Nadir hallarda, uzantılar liflərin göz toxumasının altına yapışmasına səbəb ola bilər. Bu halda süni kirpiyin cərrahi yolla çıxarılması tələb olunur.

Sevil Karaman, kirpik taxdırmazdan əvvəl göz sağlamlığı və təhlükəsizliyi ilə bağlı bilməli olduğumuz digər məsələləri belə qruplaşdırıb:

* Kirpik qaynağına başlamazdan əvvəl gözəllik salonunu və onu tətbiq edəcək şəxsi araşdırmalısınız.

* Məhsulların tərkibinə diqqətlə baxdığınızdan əmin olun.

* Salonun yaxşı reputasiyası varmı? Onlar nə qədər müddətdir biznesdədirlər və gigiyena qaydalarına nə dərəcədə əməl edirlər?

* Rəyləri oxumalı və digər müştərilərin əvvəlki və sonrakı fotoşəkillərinə baxmalısınız.

* Tətbiqi edəcək şəxs kirpik uzatmada hansı təlim, sertifikat və təcrübəyə malikdir?

* Yapışqanın tərkib hissələrinin siyahısını soruşun və allergenləri yoxlayın.

* Gözlərinizə yapışqan tətbiq etməzdən əvvəl biləyinizdə reaksiyasını yoxlayın.

* Kirpik qaynağına qarşı allergik reaksiyanız varsa, onları özünüz çıxarmağa çalışmayın. Çünki bu, gözlərinizə zərər verə bilər.

* Reaksiyanı özünüz müalicə etməyə çalışmayın. Vaxt itirmədən oftalmoloqa müraciət edin.

Oftalmoloq kirpiklərin təcrübəli bir şəxs tərəfindən gigiyenik mühitdə dəriniz üçün təhlükəsiz olan kimyəvi maddələrlə tətbiq edilməli olduğunu bildirib. Göz qapağında və ya buynuz qişada travma və ya infeksiya, yapışdırıcıya qarşı allergik reaksiya, qalıcı və ya müvəqqəti kirpik itməsi tətbiqin riskləri arasındadır.

Türk Oftalmologiya mütəxəssisi Aylin Kılıç uzun müddət takma kirpik istifadəsinin gözlərə verdiyi zərərlə bağlı açıqlamalar verib. Süni kirpiklərin təmizlənmədiyi təqdirdə gözlərin infeksiyalaşacağını ifadə edən Kılıç bildirib ki, bu gün bir çox qadınlar bundan istifadə edir. Belə ki, qadınlar bu "ipək" kirpiklərə üstünlük verir, lakin onlara qulluq edilmədikdə, kirpik dibində və göz qapaqlarında bir qədər şişkinlik və qızartı əmələ gələ bilər. Xəstələr bizə müraciət etdikdə kirpiklərini və kirpik köklərini daha ətraflı görmək üçün biomikroskopla müayinə edirik. Kirpiklərin dibində iltihab və bəzi zir-zibilləri görürük.

Aylin Kılıç, "Yanlış kirpiklər və ya kirpik qaldırma işləri aparılacaqsa, ən steril yerdə və ən keyfiyyətli materiallarla edilməlidir. Tətbiq edilən texnika çox əhəmiyyətlidir, çünki yanlış kirpiklər nəticəsində kirpik kökləri tıxana bilər. Çünki taxma kiprikli insanlar gözlərini yaxşı təmizləyə bilmirlər, üstəlik bir müddət sonra da kirpikləri tökülür. Nəticədə, gözlər quruyur və süni göz yaşı damcılarından istifadə etməyə başlayırlar.

Aylin Kılıç sözlərini göz lazer əməliyyatından əvvəl xəstələrin kirpiklərinin tamamilə təmiz olması lazım olduğuna işarə edərək yekunlaşdırdı: Lazer əməliyyatı zamanı xəstədə saxta kirpiklər varsa, bu əməliyyat üçün böyük risk yaradır. Sterilizasiyanı pozur, əməliyyatın qarşısını alır və əməliyyatdan sonrakı bərpa müddətini gecikdirir. Bəzi xəstələr 1 ay müddətində taxma kirpiklərdən istifadə edir və nəticədə kirpik kökləri qızarır, şişir və gözləri yaşlanır. Amma nisbətən keyfiyyətli saxta kirpiklər də var. Heç olmasa qadınlar bunlardan istifadə etsinlər.

Əslində, kirpiklər gözümüz üçün çox dəyərlidir, gözümüzü xarici mühitdən qoruyan, tozdan, küləkdən qurumasının qarşısını alan bir qalxandır. Ancaq gözlərimizlə oynasaq və əlavə yad cisimlər əlavə etsək, gözümüzü qorumaq üçün bütün maneələri aradan qaldıracağıq. Bu səbəbdən göz sağlamlığımıza zərər verə bilər.

Xatırladaq ki, 2022-ci ildə İngiltərənin Liverpul şəhərində baş verən hadisədə gözəl görünmək üçün taxma kirpik tətbiq edən 18 yaşlı Jasmin Dewhurst, bədəninin kirpiklərə qarşı allergik reaksiyası nəticəsində müvəqqəti olaraq kor qalmışdı. Belə ki, taxma kirpik qoymazdan əvvəl allergiya testindən keçməyən 18 yaşlı qızın gözlərini itirmək təhlükəsi yaranmışdı.

Gənc qızın saxta kirpiklər üçün istifadə edilən yapışqana güclü allergik reaksiyası olub və onun kirpik dibində qəribə şeylər yaranmağa başladığını müşahidə edib. Oraya rəfiqəsinin tövsiyəsi ilə getdiyini deyən Jasmin Dewhurst, kosmetoloqun kirpik tətbiq etməzdən əvvəl heç bir xəbərdarlıq etmədiyini və allergiya testinin lazım olduğunu qeyd etmədiyini bildirir.

Bu hadisədən sonra təxminən 1 həftə həyatına normal davam etsə də, yavaş-yavaş gözlərində yanma, qaşınma başladığını söyləyən Jasmin bir səhər oyananda heç gözlərini aça bilmədiyini anlayıb. O, Gözlərinin tamamilə bağlandığını anlayanda təlaşa başlayıb.

O, kirpiklərinin dibində istifadə edilən yapışqanın bütün gözlərini örtdüyünü və göz qapaqlarını tamamilə yapışdırdığını görüb. Duzlu su kimi müalicə üsullarını sınasa da, faydası olmayıb və qız panikaya düşüb. Bu səbəbdən müvəqqəti korluq yaşayan gənc qadın həkiminə müraciət edib.

Yasemin, kirpiklərini taxdırmaq istədikdə belə bir şeylə qarşılaşacağını heç vaxt təxmin edə bilməyəcəyini söyləyərək, əvvəlcə bunun sadə bir qaşınma olduğunu düşünsə də, əslində çox ağrılı və qorxulu bir təcrübə olduğunu ifadə edib. Yapışqanın təsiri o qədər güclü idi ki, təxminən bir ay ərzində kirpiyin hamısını çıxarmaq mümkün deyildi. O, qıcıqlanma səviyyəsinin hələ də yaxşılaşmadığını, hələ də gözlərinin şişdiyini və qaşındığını bildirir. Üstəlik, Jasmin kirpiklərinin çoxunu itirib. Hələ də gərgin bir bərpa prosesi keçirən gənc qadın gələcəkdə kirpiklərinin eyni şəkildə uzanacağına ümid edir.

***Ayşən Vəli***












ARAŞDIRMA

ŞƏRH+AKTUAL

# "Azərbaycan Qarabağda münaqişə ocağını təkbaşına neytrallaşdırıb"

## Polşalı ekspert Yakub Koreyba: "Ermənistan üçün Azərbaycanla sülh müqaviləsi bağlamaq öz dövlətçiliyini qoruyub-saxlamaq üçün son şansdı"

**Regionumuzda geosiyasi vəziyyətin dəyişməsi Cənubu Qafqaza maraqları artırıb. Belə ki, Ermənistan üzərindən bölgəyə soxulmaq istəyən Qərb Rusiyanı buradan çıxdaş etmək niyyətindədir. Daha dəqiq desək, regionu nəzarətinə götürmək üçün dəridən-qabıqdan çıxan ABŞ regionda söz sahibi olan qüvvələri zərərsizləşdirmək siyasəti aparır. Lakin onların cızdığı plan region dövlətlərinin maraqlarına zidd olduğundan amerikalıların bölgəyə daxil olmaları mümkünlüyü real görünmür.**

Polşalı politoloq Yakub Koreyba Azərbaycanın Qarabağ üzərində öz suverenliyini tam bərpa etdikdən sonra Cənubi Qafqazda mövcud qüvvələr balansını qiymətləndirərkən ölkə mətbuatına verdiyi müsahibəsində deyib ki, istənilən beynəlxalq vəziyyətdə müsbət cəhətləri görmək lazımdır: "Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi bütün Azərbaycan xalqı üçün faciəyə çevrilmişdi və regionda bədbinlik vardı. Bu gün regionda vəziyyət kökündən dəyişib. İndi dünyada aktiv təlatümlər və qlobal miqyasda siyasi qüvvələr balansının dəyişməsi prosesi gedir. Prinsipial amil ondan ibarətdir ki, Azərbaycan Qarabağda münaqişə ocağını faktiki olaraq təkbaşına neytrallaşdırıb. Ona görə də Cənubi Qafqazın böyük dövlətlərin maraqlarının toqquşması meydanına çevrilməməsi çox müsbət faktdır".

### "Vaşinqton özlərindən başqa hər kəsin taleyinə biganədir"

Koreyba ABŞ-ın ermənipərəst siyasətinə də münasibətini açıqlayarkən qeyd edib ki, məsələyə daha geniş kontekstdən baxmaq lazımdır: "Məsələ burasındadır ki, hazırda ABŞ və Çin arasında qlobal mübarizə gedir. Əsas məsələ liderlik uğrunda rəqabətdir. Böyük dövlətlərin hər biri özünə xüsusi yer təmin etməyə çalışdıqca, təsir zonaları bölünür. Bu baxımdan, ABŞ-ın konkret olaraq ermənipərəst mövqe tutduğunu deməzdim. Əslində, Vaşinqton azərbaycanlıların, ermənilərin, polyakların, özlərindən başqa hər kəsin taleyinə biganədir. Hətta Fransanın ermənipərəst mövqeyinə baxmayaraq, onlar ermənilərə öz məqsədləri naminə xidmət edirlər. Bu, daha çox Ermənistanın böyük dövlətlərin hörmətini qazanmaması ilə bağlıdır".

### "Azərbaycana qlobal miqyasda hörmət böyükdür"

"Qərəzsiz deyə bilərəm ki, Azərbaycana qlobal miqyasda hörmət böyükdür. Mən bunu şəxsi müşahidələrimə əsaslanıb deyirəm", - qeyd edən polşalı ekspetə görə, amerikalılar Cənubi Qafqazda güclü mövqelərə sahib olmağa can atırlar. Bununla da Çin, Rusiya və Türkiyənin eyni fürsətdən yararlanmasının qarşısını almağa çalışır. Sonuncunun artıq regional liderə çevrilməsi Vaşinqtonu da narahat edir: "Onlar hesab edirlər ki, bütün qlobal məsələləri dövlətlər həll etməlidir. Müvafiq olaraq, müəyyən qərarları



təkbaşına qəbul edə bilən ölkələr avtomatik olaraq ABŞ üçün arzuolunmaz hesab edilir. Şəxsən mən bir polyak olaraq Türkiyə və Azərbaycanın dünyada mövqelərinin güclənməsini müsbət qiymətləndirirəm, çünki bu, Polşanın maraqları ilə üst-üstə düşür. Ancaq maraqları Polşanın maraqlarına tamamilə zidd olan Rusiyaya gəldikdə, mən eyni fikirdə deyiləm. Amma ABŞ rəhbərliyinin nöqteyi-nəzərincə suveren ölkələr həddi keçməməlidirlər. Məsələn, onlar hesab edir ki, hər hansı mühüm qərar qəbul etməzdən əvvəl həm Ərdoğan, həm də Əliyev ABŞ-ı xəbərdar etməli və onlardan icazə almalıdır. Bu, sırf Amerika təfəkkürüdür, ona görə də konkret halda bu problemə Vaşinqtonun ermənipərəst maraqları baxımından deyil, daha geniş miqyasda baxmaq lazımdır".

### "Ermənistan hazırda dünyanın siyasi xəritəsindən silinmək riski ilə üz-üzədir... Paşinyan özünü psixopat kimi aparır"

Polşalı ekspert hesab edir ki, ABŞ üçün bu və ya digər ərazinin kimə məxsus olmasının, kimin harada yaşadığının və nəyə nəzarət etdiyinin əhəmiyyəti yoxdur: "Bütün bunların amerkalıların nəzarəti altında baş verməsi onlar üçün vacibdir".

O, Bakı ilə İrəvan arasında sülh sazişinin bağlanma ehtimalının nə qədər olmasına da proqnoz irəli sürərək deyib ki, Ermənistan üçün Azərbaycanla sülh müqaviləsi bağlamaq öz dövlətçiliyini qoruyub-saxlamaq üçün son şansdır: "Ermənistan hazırda dünyanın siyasi xəritəsindən silinmək riski ilə üz-üzədir. Çünki onlar qonşuları ilə normal münasibətlər qurmağı bacarmırlar. Paşinyan özünü psixopat kimi aparır. Mən Ermənistanda oldum və ölkə əhalisinin yaşadığı acınacaqlı vəziyyəti öz gözlərimlə gördüm". Yakub Koreyba digər maraqlı məqama da toxunaraq qeyd edib ki, bu gün erməni cəmiyyəti qəzəblidir və daim öz dərdlərinin günahkarını axtarır: "Ermənilərə görə bu vəziyyətə düşmələrində özlərindən başqa hamı günahkardır".

### "Avropa İttifaqı lobbiçilərin bazarına çevrilib və bu da Aİ strukturunun mənəvi cəhətdən çürüməsindən xəbər verir"

Avropa İttifaqının Cənubi Qafqazla bağlı qərəzli siyasət yürütməsinə də münasibətini açıqlayan politoloq bildirib ki, Aİ-nin Cənubi Qafqaz siyasəti onu təəssüfləndirir: "Çünki mən də Avropa İttifaqında yaşayıram və bu təşkilatın konseptual olaraq necə nüfuzdan düşdüyünü müşahidə edirəm. Aİ-nin nəyə nail olmağa çalışdığı, kimin maraqlarını müdafiə etdiyi tam aydın deyil. Aİ-nin müxtəlif qurumları ayrı-ayrılıqda fəaliyyət göstərir və faktiki olaraq onların hər birinin öz maraqları var. Ermənistana müşahidəçi missiyası göndərmək kimi gülünc qərarlar təşkilatı gözdən salır. Bunun Aİ-nin maraqları ilə necə əlaqəli olduğu və onun xarici tərəfdaşlarla münasibətlərini necə formalaşdırdığı aydın deyil. Təəssüf ki, Avropa İttifaqı lobbiçilərin bazarına çevrilib və bu da Aİ strukturunun mənəvi cəhətdən çürüməsindən xəbər verir".

### "Texniki və hüquqi baxımdan Ermənistan separatizmi dəstəkləyən dövlətdir"

Bu arada, Ermənistanın Qərbə tərəf istiqamət alması və bunun müqabilində Aİ-yə üzv olacağı iddialarına da açıqlama verən ekspert bunun qeyri-mümkünlüyü barədə danışıb. Onun sözlərinə görə, Ermənistanda Aİ-yə üzvlük sevdasının baş qaldırması boş xülyalardır. "Texniki və hüquqi baxımdan Ermənistan separatizmi dəstəkləyən dövlətdir", deyən Koreyba bunun Avropa dəyərlərinə uyğun gəlmədiyini deyib. "Ona görə də hesab edirəm ki, İrəvanda nə qədər xəyal qursalar da, bu ölkənin Aİ-yə üzv olmaq perspektivi yoxdur", - deyə polşalı politoloq fikirlərini yekunlaşdırıb.

*Afət Tahirqızı*

# Bakcell-in sponsorluğu ilə "İnnovasiya Sammit"i keçirilir

Ölkənin ən böyük özəl operatoru olan Bakcell "InMerge İnnovasiya Sammiti"nin "Sürət və Telekom partnyoru" olaraq bir daha innovasiyalara öz dəstəyini göstərib. 30 noyabr - 1 dekabr 2023-cü il tarixlərini əhatə edən regionun ən böyük sammiti Bakı Konqres Mərkəzində "PAŞA Holdinq"in təşkilatçılığı, Bakcell şirkətinin aparıcı sponsorluğu ilə ilk günü geridə qoyub. İnnovasiya və yüksək texnoloji yeniliklərə sarsılmaz dəstəyi ilə tanınan Bakcell artıq 3-cü ildir ki, innovasiya tədbirlərinə sponsor olaraq öz dinamik rolunu qoruyur. Sammitin məqsədi texnologiya sahəsində aparıcı liderləri, şirkətləri, eləcə də innovasiya yönümlü startapları bir araya toplamaq, regionda innovasiya ekosisteminin formalaşmasına dəstək göstərməkdir. Tədbirin ilk günü telekommunikasiya vertikalında Bakcell-in Baş icraçı direktoru Klaus Müller öz bilik və təcrübəsini auditoriya ilə bölüşüb, iştirakçılarla faydalı fikir mübadiləsi aparıb.







"Telekommunikasiya sektorunda daim innovativ həllərlə fərqlənən bir şirkət kimi bu tədbirin "Sürət və Telekom partnyoru" olmaqdan qürur duyuruq. Ötən müddət ərzində ən müasir səs texnologiyası olan VoLTE-ni, yenilənmiş Bakcell tətbiqini abunəçilərin ixtiyarına verərək, telekommunikasiya sektorunda ciddi addımlar atmışıq. Uğurlarımızın nəticəsi olaraq 2023-cü ildə Ookla® şirkəti tərəfindən "Speedtest" mükafatına layiq görülərək "Azərbaycanın ən sürətli operatoru" adını almağa layiq görülmüşük. Bakcell olaraq qarşıdakı dövrdə ən qabaqcıl texnologiyaların ölkəyə gətirilməsində genişmiqyaslı fəaliyyətimizi daha da gücləndirəcəyik." - deyə Klaus Müller bildirib. Ölkənin dörd bir yanında "Ölkənin ən sürətlisi" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirən Bakcell şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.



MƏTANƏT

# 3 il əvvəl, 1 dekabr

***Həmin gün Ali Baş Komandanımızın xalqımıza yenə də qələbə müjdəli müraciəti var idi: Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq.***

Dövlətimizin başçısının bu dəyərli kəlamlarını dinləyərkən xəyalən 28 il öncəki Laçına getmişdim. O Laçına ki, 1992-ci il mayın 18-də Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistan istiqamətindən hücuma keçən düşmən tərəfindən işğal edilmişdi. İşğal nəticəsində Laçın rayonunun əhalisi etnik təmizləməyə məruz qalmış, 77 min nəfərdən artıq Laçın sakini Azərbaycanın müxtəlif bölgələrinə məcburi köçkün kimi səpələnmişdi. Ermənistan tərəfindən Laçında 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilərək rayona 7.1 milyad dollar həcmində ziyan vurulmuş, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalaraq, 264 nəfər şəhid, 103 nəfər əlil olmuş, 65 nəfər girov götürülmüşdü.

2020-ci ilin 44 günlük Vətən müharibəsi tariximizin parlaq səhifələrini təşkil edir. Bu parlaqlığı çox məqamlar xarakterizə edir. Dövlət-xalq birliyi, həmrəylik, vətənpərvərlik, torpaq sevgisi, bayraq sevdası, ölümün üzünə dik baxmaq və sair. Lakin biz nəsil üçün daha önəmli olan bir məqam da var ki, bu gün 30 illik Qarabağ yaralarını sağaldan həkimlər məhz biz nəslin övladlarıdır. 30 ildə sağalmaq bilməyən, qanı sızan, qaysaq bağlamayan yaraları 30 il əvvəl o acı günlərin hər birinin canlı şahidi olanların övladları sarıdı. Bu yaraların üstünə öz qanlarını məlhəm edib çəkdilər. 30 ilin yaraları 44 gündə sağaldı. Bu yaraları sağaldanlar həm də torpaqlarımızın nisgildən kor olan gözlərinə də məlhəm oldular. Torpaq canlandı, özünə gəldi, bayrağına, insanına, yurddaşına qovuşdu. Onların - o həkimlərin, o şəhidlərin hesabına. Qürur duyduğumuz, qarşılarında əbədiyyən baş əydiyimiz igid oğullarımızın hesabına geri alındı yurd yerlərimiz. Onlar öz gənc ömürlərini torpağın azadlığına, milli mənliyin xilasına, bir də ata-babalarının torpaq təşnəsinə qurban verib bizi torpaqlı, elli, yurdlu etdilər. Üzərimizdən qaçqınlığı, köçkünlüyü götürdülər. Və tarix durduqca Qarabağın şahinlərinə, yaraların təbibinə çevrildilər. Ağdama, Kəlbəcərə, Laçına da qələbə cığırlarını o igidlər açdılar. Ruhunuz şad olsun, Vətən oğulları!

Beləliklə, Laçın 1 dekabr 2020-ci ildə azad oldu. Artıq Laçın abadlaşır, yenidən qurulur. Sakinlərinin bir hissəsi ata-baba yurduna qovuşub. Qarşıda Qayıdış davam edəcək. Bütün bunlar insanın ürəyini dağa döndərir. O ürəyi ki, vaxtilə ermənilər ona dağ çəkmişdi.

Laçın, azadlığın mübarək olsun! Bu gün 3 il əvvələ qayıtmaq necə də gözəl duyğudur.

# "Təhsil dövlətçilik siyasətinin vuran qolu, təməl nöqtələrindən biridir"

"İlk növbədə qeyd edim ki, Qarabağda ayrıca bir dövlət universitetinin yaradılması və onun Qarabağ Universiteti deyə adlandırılması çox böyük hadisədir. Təhsil dövlətçilik siyasətinin əsas vuran qolu, təməl nöqtələrindən biri olub". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, məsələnin bir neçə rakursdan faydaları var: "Birincisi, dövlətçiliyə dəstək rakursundan, ikincisi azad olunmuş Qarabağ adının təhsil seqmentində də var olduğunu göstərmək, üçüncüsü isə tədrisin keyfiyyəti rakursundan. Qarabağ Universiteti, bəlkə də, Azərbaycanın xüsusi təhsil göstəricilərinə malik olan ən böyük ali təhsil müəssisəsi olacaq. Nazir tibb təhsil konfransında olduğuna görə, orada yalnız tibb təhsili barəsində danışıb. Amma həmin universitetdə dövrün əsas ixtisaslarından olan İT istiqaməti, mühəndislik, digər kriteriyalar da tədris olunacaq.




İşğaldan azad edilmiş ərazilərin quruculuğunda təhsil müəssisələrinin tikintisi, bərpası və tədrisin təşkili vacib amildir. Çünki təhsil insanların həmən ərazilərdə sərətlə məskunlaşmasına, eyni zamanda həmən ərazilərdə xidməti vəzifələrinini yerinə yetirən əməkdaşların övladlarını təhsil almaq şəraitinin yaxşılaşdırılması üçün bu vacibdir".

Kamran Əsədov sözlərinə belə davam edib: "Hər kəsə məlumdur ki, ölkə başçısı cənab İlham Əliyevin hazırda qarşıda dayanan ən mühüm vəzifələrdən biri işğaldan azad olunmuş ərazilərimizin bərpasıdır. Hesab edirəm ki, bu prosesdə Azərbaycan təhsili də fəal iştirak etməlidir. İşğaldan azad edilmiş ərazilərdə xidmət keçən şəxslərin məktəbyaşlı övladlarının təhsil hüququnun təmin edilməsi, onlar üçün təhsilin əlçatananlılığının təmin edilməsi zəruridir. Buna görə işğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyət kəsb edir.

Düşünürəm ki, indiki halda İşğaldan azad olunmuş ərazilərdə məskunlaşacaq əhaliyə təhsil xidmətlərin göstərilməsi üzrə mütəxəssislərin fəaliyyətlərin stimullaşdırılmalıdır. Çünki ora gedəcək müəllimlər ilkin olaraq həmən ərazilərdə yaşamaq üçün təlimlərə cəlb edilməli, onların əmək haqlarına xüsusi əlavələr edilməlidir.

İşğaldan azad olunmuş ərazilərdə məşğulluğun aradan qaldırılması baxımından, eyni zamanda, prioritet mövcud təhsil müəssisələrində mütəxəssislərin hazırlanması üçün Təhsil Nazirliyi Müəllimlərin işə qəbulu imtahanında iştirak edib, müvafiq balı toplayan, amma vakansiya yoxluğu səbəbindən işə qəbul olunmayan müəllimləri prosesə cəlb edə bilər. Düşünürəm ki, qısa müddətdə bölgələrin ənənəvi, coğrafi və s. xüsusiyyətlərinə uyğun xüsusi profilli təhsil müəssisələrinin (məktəbdənkənar, peşə, orta ixtisas, ali) və əlavə kursların yaradılmalıdır ki, həm yaxın zamanlarda tarixi torpaqlarına köçəcək insanların, eyni zamanda orada xidmət edən şəxslərin ailə üzvlərinin təhsil alma imkanı əlçatan olsun.

Bir faktı da qeyd edim ki, işğaldan azad edilmiş ərazilərdə işğaldan əvvəl ümumilikdə 259 məktəbəqədər təhsil, 673 ümumi təhsil, 40 məktəbdənkənar, 14 peşə təhsili, 7 orta ixtisas təhsili olmaqla 993 təhsil müəssisəsi fəaliyyət göstərmişdir. Əlbəttə ki, birdən-birə bu infrastrukturun bərpası mümkün deyil. Bunun üçün azı 3-5 il vaxt lazımdır. Lakin ilkin mərhələdə məskunlaşmanın həyata keçirildiyi və xidmətli şəxslərin olduğu ərazilərdə təhsil xidmətlərinin göstərilməsi təmin edilməlidir. Hətta 1969-cu ildə Xankəndində yaratdığı bir ali təhsil müəssisəsi də var idi.

Mənim özümün də hazırda işğaldan azad olunmuş ərazilərdə təhsilin inkişafı, tədrisin təşkili qaydaları ilə bağlı təkliflər paketini hazırlamışam, bununla bağlı layihələrimiz var. Burada 3 mərhələdən ibarət təkliflərimiz var. Yəni, işğaldan azad edilmiş ərazilərdə təhsilin təşkilinin 3 mərhələdə keçirilməsini təklif edirik.

Birinci mərhələdə ora köçürüləcək, dədə-baba yurdlarına qayıdacaq şagirdlərin sayına uyğun olaraq modul tipli orta ümumi məktəblərinin salınması. Yəni birdən-birə böyük orta təhsil müəssisələrinin salınması həm uzun vaxt aparacaq, həm də tam dolmayacaq. Hazırda bilirik ki, hər rayonun nə qədər şagirdi var. İstər qoşunlarımız tərəfindən azad edilmiş Qubadlının, Zəngilanın, Füzulinin ərazisində olan şagirdlərin, eyni zamanda növbəti mərhələli şəkildə işğaldan azad ediləcək Laçın, Kəlbəcər, Ağdamın məktəblilərinin sayını bilirik. Amma bütün hər kəs ora gedəcəkmi? Bu məsələ hələ də sual altında olduğuna görə bizim təklifimizin birinci hissəsi budur ki, ilkin mərhələdə Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçında və Ağdamda, işğaldan azad edilmiş digər kənd və qəsəbələrdə modul tipli məktəblər yaradılsın. Beləliklə də təhsil alanların təhsil hüquqları pozulmasın.

İkinci, bunu Azərbaycan hökumətindən xahiş edir, bəlkə də tələb olaraq qeyd edirəm ki, biz Qarabağın inzibati ərazisində və işğaldan azad edilmiş ərazilərimizdə bir neçə ali təhsil müəssisəsini mütləq şəkildə açmalıyıq. Nəzər alsaq ki, işğaldan azad edilmiş ərazilərdə məzunlar olacaq, yəni 10-11-ci siniflərdə təhsil alan abituriyentlər olacaq ki, ali təhsil müəssisələrinə daxil olmaq istəyəcəklər. Onlar paytaxt Bakıya və digər şəhərlərə getmək əvəzinə Qarabağda təşkil olunacaq universitetlərə daxil olsunlar. Yeni gələcəkdə mütləq şəkildə Qarabağ Dövlət Universiteti, Şuşa Dövlət Universiteti yaradılmalıdır. Hətta Azərbaycanın Ermənistanla sərhəd olan ərazilərində Laçında, Qubadlıda belə Müəllimlər İnstitutunun, İqtisad Universitetinin filiallarını açmalıyıq.

Bir daha qeyd edirəm ki, təhsil müəssisələri əhalinin məskunlaşmasına, işlə təmin edilməsinə, eyni zamanda həmin ərazilərin iqtisadi inkişafına təsir edir. Ermənilər bu istiqamətdə addım atmışdılar. Məsələn, biz Şuşada universitet açmamışdıq, amma ermənilər işğaldan sonra orada iki universitet açmışdılar. Bunlar Şuşa Texniki Universiteti, İrəvan Kənd Təsərrüfatı Universitetinin Şuşa filialı idi. Beləliklə, biz də həmin ərazidə mütləq şəkildə hərbi məktəb, ikincisi Şuşa şəhərində yerləşəcək Dağlıq Qarabağın bütün ərazisində təhsil alacaq şəxslərin ödənişsiz təhsilini həyata keçirmək üçün Qarabağ Dövlət Universiteti, Şuşa Dövlət Universiteti açmalıyıq. Həmçinin ən əsası hərbi kadrların hazırlandığı təhsil müəssisəsi, regionun kənd təsərrüfatını nəzərə alaraq orada mütləq şəkildə kənd təsərrüfatı kadrlarını hazırlayan universitet açılmalıdır.

Xankəndində fəaliyyətə başlayacaq Qarabağ Universiteti təhsilin brendi olacaqdır. Bu brendin özəllilikləri kimi "tələbə mərkəzli" universitet, öyrətməyə vida edən və öyrənməyi əsas tutan təhsil modeli, fərdi təhsil trayektoriyası əsasında təhsil verən universitet, təhsilin əsas keyfiyyət amili kimi hər bir təhsilalanın "təhsil izi", XXI əsr vərdiş, bacarıq və kompetensiyaların formalaşmasına zəmanət verən adaptiv təhsil modelini göstərmək olar. Həmçinin, distant təhsilin yaratdığı üstünlükləri maksimal dərəcədə reallaşdıran universitet, dünyada öndə olan universitetlərin və tanınmış peşəkarların potensialından bəhrələnən şəbəkə universiteti, rəqəmsal iqtisadiyyat sahəsində ixtisaslaşan tədris və elm mərkəzi, xətti-funksional idarəetməni proseslərin idarəedilməsilə əvəzləyən universitet, "Smart universitet", Şəhid övladlarının təhsil aldığı universitet. Mən əminəm ki, "Qarabağ" güclü bir universitet brendi olacaq. Düşünürəm ki, bu universitetdə ilk növbədə Qarabağ regionun inkişafı üçün kadr potensialı yetişdirilməli, ixtisaslar bölgənin spesifikasına uyğun formada müəyyənləşməlidir. Eyni zamanda, universitetdə Qarabağın tarixinin tədris olunmasına xüsusi diqqət yetirilməlidir. Həmçinin düşünürəm ki, universitetə xarici ölkələrdən də təhsil almaq üçün tələbələr cəlb olunmalıdır.

Üçüncü İqtisadiyyat Universiteti, onun filialları olmalıdır. Həmçinin hüquq fakültələri açılmalıdır. Çünki şahidi olduq ki, Dağlıq Qarabağ münaqişəsi zamanı ən böyük problemlərimizdən biri həmin ərazilərdə hüquq-mühafizə orqanlarında azərbaycanlı kadrların azlıq təşkil etməsi idi. Hətta orada Polis Akademiyası da açmaq olar.

Bundan başqa, Qarabağda həmişə əkinçilik və şərabçılıq inkişaf edib. Yüngül sənaye sahələrində olduğu kimi, bu sahələrdə də kadr hazırlamaq lazımdır. Bu sektorlarda mütəxəssislər Gəncədə hazırlanır, lakin Qarabağda bir universitetin açılması bu sahədəki kadrları paytaxta doğru axın etmədən saxlamağa kömək edəcək. Qarabağda təkcə ali təhsili deyil, həm də peşə təhsilini inkişaf etdirmək vacibdir. Texniki məktəblərdə və kolleclərdə kənd təsərrüfatı, inşaat və iqtisadi peşələrə tələbat olacaq, gələcəkdə turizm xidmətləri, tibb və s. sahələrdə kadrlara ehtiyac duyulacaq. Ümumiyyətlə, regionun coğrafi mövqeyi, digər regional xüsusiyyətlər nəzərə alınmalıdır. Bu sahədə aparılan işlərin yüksək tempi ona əsas verir ki, infrastruktur dəyişiklikləri gedir, sadəcə bu sahədə irəliləyiş zamana bağlıdır.

Prezidentimiz qeyd etdi ki, gələcəkdə ermənilər də bizimlə birgə yaşaya biləcək. Bu baxımdan çalışmalıyıq ki, rəhbər postlara təyinat üçün mütləq şəkildə daha çox azərbaycanlı kadrlar olmalıdır.

Məlum olduğu kimi, sovet dönəmində istər Bakıda, istərsə də digər böyük şəhər və bölgələrdə bir çox vəzifələrdə kadrlarımız az idi, daha çox ermənilər təşkil edirdi. Çünki ermənilər öz uşaqlarını universitetlərə göndərəndə biz daha çox kənd təsərrüfatı ixtisaslarına meyillənmişdik. Ona görə də təkliflərimizin ikinci hissəsi bundan ibarətdir ki, həmin ərazilərdə mütləq şəkildə universitetlərimiz açılmalıdır. Üçüncü təklifimiz peşə müəssisələrinin və kollecləri açılmasıdır. Ona görə ki, qısa vaxt ərzində həmin ərazilərdə ehtiyac duyulacaq sahələr üzrə ixtisaslı kadrlar hazırlanmalıdır.

Həmçinin uşaq bağçalarının açılması bizim növbəti mərhələ üçün təklifimizdir. Yəni Qarabağda təhsil elə bir vəziyyətə gətirilməlidir ki, 90-ci illərdə yaşadıqlarımızı bir daha yaşamayaq. Təhsil orada həm müdafiədir, həm ixtisaslı kadrdır, eyni zamanda məskunlaşmağa təsir edən birbaşa amildir. Hesab edirəm ki, işğaldan azad edilmiş və azad olunacaq ərazilərdə təhsil tamamilə yeni formatda qurulmalıdır və hökumət bu məsələni birinci məsələ olaraq ortaya qoymalıdır.

Qarabağda təkcə ali təhsili deyil, həm də peşə təhsilini inkişaf etdirmək vacibdir. Qarabağda şəhərcikləri olan universitetlər tikmək lazımdır ki, tələbələr orada həm oxusunlar, həm də yola vaxt itirmədən yaşasınlar".

***Ayşən Vəli***

## "ABŞ Azərbaycana təzyiq göstərməyin faydasız olduğunu dərk edib"

*MÖVQE*



"Bəlkə də Azərbaycan-ABŞ münasibətlərində tarix boyu bu ilin oktyabr-noyabr aylarında olduğu qədər gərgin mərhələlər olmamışdı. Bu gərginliyin səbəbi sözsüz ki, ABŞ tərəfinin müəyyən açıqlamaları, xüsusilə də noyabrın 15-də keçirilən konqresdə Qarabağla bağlı qərəzli müzakirələr və bəyanatlar oldu. Ardınca ABŞ-ın Azərbaycan rəsmilərinin ölkəyə səfərinin məhdudlaşdırılması ilə bağlı müəyyən qərarları demək olar ki, bu gərginliyin kuliminasiya nöqtəsinə çevrildi. Görünür ki, ABŞ bu gərginliyin məhz onlar tərəfdən yarandığının fərqinə vardı. Bunun nəticəsində Amerika hökumətinin ümumi qərarı ilə Antoni Blinken Azərbaycan Prezidentinə zəng etdi. Bu zəng vasitəsilə ABŞ tərəfi bir çox etiraflarda bulundu. Həmin etiraflar əslində, ABŞ-Azərbaycan münasibətlərindəki bəlli gərginlikdən sonra yeni bir mərhələnin başlanğıcı oldu". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.

Onun sözlərinə görə, Amerika heç gözləmirdi ki, müstəqillik tarixində ilk dəfə olaraq Ermənistanın açıq şəkildə dəstəklənməsi və Azərbaycan əleyhinə qərəzli bəyanatların verilməsinə dövlətimiz bu cür qətiyyətli reaksiya verəcək: "ABŞ-ın qərəzli açıqlamalarından sonra Azərbaycan XİN bu cür siyasətin iki ölkə arasındakı münasibətlərə ağır zərbə vurduğunu, eləcə də ölkəmizdə onun nüfuzunun kəskin şəkildə sarsıldığını bəyan etdi. Ola bilər ki, ABŞ Azərbaycanın bu məsələni həmişəki kimi diplomatik şəkildə örtülü ritorika ilə ötüşdürəcəyini gözləyirdi. Amma Azərbaycan qəti mövqe nümayiş etdirdi, baş verən hadisələrə özünün birmənalı münasibətini bildirdi və ABŞ-ın vasitəçiliyi ilə keçiriləcək siyasi tədbirlərdən, görüşlərdən imtina etdi".

"Görünür, ABŞ bütün bunlardan lazımi nəticəni çıxardıb. Hesab edirəm ki, ABŞ bundan sonra Azərbaycana ya diplomatik dildə, ya da müəyyən qərarlarla təzyiq göstərməyin faydasız olacağını qəbul edib. Güman ki, Azərbaycan və ABŞ münasibətlərində artıq yeni bir mərhələ başlayacaq. ABŞ tərəfi öz yanlışını və bu yanlışın əsasən Ermənistanın təcavüzkar siyasətinə lüzumsuz dəstəyin verilməsindən doğduğunu dərk edib",- deyə o əlavə edib.

***Ləman Sərraf***



# “Qırmızı yaylıqlı” dağlar gözəli

Payızın bu vədəsində dağlarımızın, düzlərimizin soluxmuş hüsnünə ”qırmızı yaylıqlı” yemişan kolları xüsusi gözəllik qatar. Elə bu vaxt burnumuza da yemişanın ətri gələr.

Bu vaxtlar hər dəfə dərsdən çıxanda gözümüz yemişan satanları axtarardı. Və nəhayət, günlərdən birində onları qarşılarında qıpqırmızı yemişan dolu vedrə, üstündə bir stəkan, bir də ki satdıqları yemişanı içərisinə qoymaq üçün kağızdan, köhnə qəzetdən, dəftər vərəqlərindən düzəltdikləri bir dəstə bükümlə məktəb yolundakı ağacların altında əyləşdiklərini görərdik. Bunu gördükmü, hər gün 20 qəpiksiz evdən bayıra addım atmazdıq... Stəkanı 20 qəpiyə satılan yemişandan alıb, yolboyu şirin-şirin yemək üçün... Amma biz yemişanımızı o kağız bükümlərə yox, cibimizi aralayıb ora tökmələrini istərdik. Sonralar bunu həmyaşıdlarımla birgə elə hey xatırlayar, axır qənaətimiz isə belə olardı ki, axı yemişanı satmaq üçün yığanlar yox, qoyunquzu növbəsinə gedənlər onu cib-cib yığardılar. Hər dəfə gedəndə bir cib, iki cib. Əvvəllər babamız, sonralar isə əmimiz, dayımız çöldən gələndə bir cib yemişanı çıxarıb birimizə verər, bölün, yeyin, - deyərdi. Uşaqlığımızın ən ləziz, dadlı hədiyyəsini ləzzətlə, şirin-şirin yediyimiz üçün sonralar da onu ciblərimizə doldurub yeməkdən ayrıca zövq alardıq. Yemişanı yığanlar da vedrələri dolanda onu satışa çıxarardılar.

Bir də uşaqlıq hafizəmdə həmişəlik qalan bu giləmeyvənin uzun müddət xarab olmamasıdır. Otun, samanın üstünə sərdinmi, rəngi daha da qızarar, dadı şirinləşər, qurudulmuşu isə xarab olmaz.

İndi Şahbuz rayonunun Biçənək və Batabat meşəliklərində, Ağbulaq, Gömür, Nursu, Keçili, Külüs kəndlərində üzüyuxarı yol boyunca budaqları barından yerə dəyən ”qırmızı yaylıqlı” kollar gözəlliyi ilə yolçunu yoldan edir. Doqquzdonu, zirinc və həmərsindən dərməmiş, yemişandan doyunca yeyib, bir cib yığmamış, gəl bu kollardan yan keç görüm, necə keçirsən.

Xatirələr bir neçə il bundan əvvəl Keçili kənd sakini Dilsuz müəllimlə yemişan barədə söhbətimizi də yada salır. O deyirdi ki, biz kənd adamları qan təzyiqi xəstəliyinin nə olduğunu bilmirik. Çünki ayağımız yer tutandan kəndimizin dağ-dərəsində günün hər vaxtında, hər vədəsində bu giləmeyvələrdən yeyib hətta aclığımızı belə, unudardıq. Bu vədələr qoyunquzu növbəsinə getmək payızın yağışına, yağmuruna tuş gəlmək demək idi. Amma buna baxmayaraq, gəncliyimizdə yemişan, həmərsin, doqquzdonu həvəsilə dağlara üz tutardıq. Qar yerə düşənə kimi kolun üstündə ”qərar tutan” yemişan şaxta vurduqda tökülər və daha yeməli olar. Şirinliyi ilə adamı şirnikdirən yemişanı yedikcə yeyərdik. Sən demə, bununla özümüz də bilmədən sağlamlığımızı möhkəmləndirirmişik.

Yadımdadır, söhbətimizin bu yerində Dilsuz müəllimin gözləri doldu, səsi bir qədər titrədi və dedi: - Yazda çöl-bayır işində olan böyüklərimizin yemişan və həmərsin çiçəklərindən ocaq üstə dəmlədiyi çaydan içmək üçün əldən-ayaqdan gedərdik. Çünki o çayın ayrı bir dadı, ləzzəti olardı. Həmin çaydan içib qızmar günəş altında tər tökən atababalarımız payızda yemişanın meyvəsini yeyər, mürəbbəsi ilə çay içərdilər. Onda kəndli bazardan meyvə alıb mürəbbə bişirməyi ar bilərdi. Kəndin çölündə, çəmənində, öz həyət-bacasında olanlardan qışa azuqə yığardılar. Dava-dərman tanımayan insanlar beləcə, uzun ömür sürərdilər. Təbiətin səxavətli vədəsində - payızda yetişən yemişan kolları blokadanın ilk illərində darda qalan insanlara ümid yeri oldu. Oduncağı daş kömürə bərabər olan yemişan kolları elə barı üstündə qırılıb çatılırdı. Həmin vaxtlarda kəndlərimizdə, dağlarımızda yemişan kolları azalmağa başladı. Amma, şükürlər olsun ki, bu, uzun zaman davam etmədi. Sonrakı illərdə dövlətimizin qayğısı nəticəsində işığımız, qazımız bərpa olundu, yenə də çöllərimizdə qucaq-qucaq yemişan kolları böyüdü, bara doldu. İndi kəndlərimizə qonaq gələn şəhərli qohumlarımıza əziz paydır yemişan. Onun çiçəyi də, meyvəsi də dərmandır.





Yeri gəlmişkən, bu giləmeyvə gülçiçəklilər fəsiləsindəndir. Ağac və ya iri kol bitkisi olub,



növbə ilə düzülmüş yumurtaşəkilli yarpaqları vardır. Yarpaqlarının kənarı mişarvarıdır. Ağ rəngli ətirli çiçəkləri, uzunsov kürəvarı, lətli və şirəli meyvəsi olur. Yetişən vaxt qırmızı, qara, şabalıdı və sair rəngə boyanır. Meyvəsinin içərisində açıq-sarı rəngli toxumları yerləşir. Bitki may-iyun aylarında çiçək açır, sentyabr-oktyabr aylarında meyvələri yetişir. Bu bitkinin Azərbaycanın bir çox bölgələrində - dağ-meşə rayonlarında 9 növünə rast gəlinir

Yemişanın qurudulması və faydaları barədə: yemişan meyvələrini ağ kağız üzərində seyrək sərib, tez-tez çevirməklə qurutmaq lazımdır. Belə şəraitdə qurudulmuş meyvələr təbii rəngini saxlayır, kimyəvi tərkibini dəyişmir. Qurumuş meyvələri xüsusi torbalara doldurub, havası daim dəyişilən quru yerdə saxlayırlar.



Yurdumuzun bəzəyi olan bu nemətin meyvəsindən və çiçəklərindən çox qədim vaxtlardan xalq təbabətində bir sıra xəstəliklərə qarşı istifadə edilib. Qədimdən dərdinə dərmanı həmişə türkəçarələrdə, dərman bitkilərində tapan insanlar onun qurudulmuş çiçəklərindən və meyvələrindən çay kimi dəmləyib, ürək ağrıları zamanı və qan təzyiqi yüksək olanda içərlər.

Elmi təbabətdə yemişandan ürək-damar sistemi xəstəliklərinin müalicəsində, xüsusən ürək fəaliyyəti zəifliyinin, aritmiyanın, aterosklerozun aradan qaldırılması məqsədilə geniş istifadə olunur.

Yemişan kənd təsərrüfatında da mühüm əhəmiyyətə malikdir. Belə ki, sağılan malqaranın yeminə yemişan meyvələri əlavə etdikdə onların südü xeyli artır və süddə yağın miqdarı çoxalır.

Naxçıvanın Nursu kəndindən olan şirin sözlü-söhbətli, poeziya vurğunu Səkinə xala isə yemişanı bu yerlərdə dağlar gözəli adlandırdıqlarından, onun gözəlliyinin bu vaxtlar kəndə gələn hər kəsi valeh etdiyindən danışır: - Bakıda bir qadın tanışımız var. Ötən payız birinci dəfə idi ki, bura gəlirdi. Yol kənarlarında yemişan kollarını görmüşdü. Çox maraqla onun haqqında soruşduqda, mən bədahətən:

Əzizim, yemişan gözəl,
Dağa, düzə şan, gözəl.
Dadını soruşma, gəl,
Bal şanıdı bu gözəl.

- dedim. Sonra onunla birlikdə gəzməyə çıxmışdıq. ”Qırmızı yaylıqlı” yemişan kollarına valeh oldu, meyvəsinin dadına, ətrinə heyran qaldı. Dedi ki, belə gözəlliyi görən ölərmi? Dedim, hər payız gəl, sən də gör:

Əzizim, yemişana gəl,
Bu vədə, bu anda gəl.
Yemişan qırmızı şalın,
Başına salanda gəl.

Bəli, dağ-dərələrimizin, düzlərimizin min bir adda nemətləri - erkən yazdan bulaqotu, yarpız, qazayağı, çiriş və cacığı, bir az sonra göbələk, uşqun, sobu, bolu, çaşır, baldırğan, əvəlik, ələyəz və şıppırı, yay uzunu kəklikotu, dağ nanəsi, çobanyastığı və solmazçiçəyini, payızdan qar yerə düşənədək həmərsin, zirinc, doqquzdonu, yemişanı və daha nələri var. Hər dəfə bazarlarımızda bu nemətləri piştaxtalara düzüb satanları görəndə qürur hissi duyursan. Axı onlar yaranışdan ruzi mənbəyi olan dağlarımızın, düzlərimizin min bir nemətini, həm də özlərinin əkib--becərdiklərini bazarlarımızda sata, xeyir götürə, dolanışıqlarını qura bilirlər. Digər bir tərəfdən isə qürur duyursan ki, havası, suyu kimi torpağının hər qarışının yetirdiyi nemətləri də min bir dərdə dərman olan belə gözəl yurdumuz var. Bu bərəkətli, səxavətli dağların, düzlərin sahibi bizlərik. Nemətlərinin hər biri təbiətimizə ”qırmızı yaylıqlı” yemişan kimi öz naxışı ilə doyumsuz gözəllik qatan dağların, düzlərin...

***Mətanət Məmmədova***

# Rusiyalı politoloq: "Qərb Ermənistan vasitəsilə Qafqazı qarışdırmağa çalışır"

**Tanınmış rusiyalı politoloq, PolitRUS portalının rəhbəri Vitali Arkov "Moskva-Baku" portalına müsahibəsində İrəvanın Moskvaya qarşı müntəzəm qeyri-dost addımlarına və bəyanatlarına baxmayaraq, Kreml tərəfindən Ermənistana qarşı loyal ifadələrin səbəbləri və Qərbin Cənubi Qafqazı özünə uyğunlaşdırmaq cəhdlərinin məqsədi barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Vitali Aleksandroviç, Rusiya liderinin mətbuat katibi Dmitri Peskov deyib ki, bir sıra ölkələr hələ də Qarabağ ətrafında vəziyyəti sabitliyi pozmağa çalışır. Bu isə, Peskovun fikrincə, Azərbaycan tərəfinin rəsmi şəkildə bəyan etməsinə gətirib çıxarıb ki, bu ölkələr çətin ki, vasitəçi roluna iddia edə bilər, çünki onlar birtərəfli mövqe tutublar". Peskov həmçinin qeyd edib ki, bu qüvvələrin maskaları açılıb və artıq mübarizə birbaşa üz-üzə, açıq şəkildə aparılır". Kreml nümayəndəsi qeyd edib ki, Rusiya Moskvanı bölgədən sıxışdırıb çıxarmaq cəhdlərindən xəbərdardır, lakin onun sözlərinə görə, Rusiya Federasiyası istisna olmaqla, heç kim Zaqafqaziyada sülh və sabitliyin təminatçısı rolunda oynamağa qadir deyil.***

- Qərb qüvvələrinin Cənubi Qafqazdakı bugünkü davranışı bir daha nümayiş etdirdi, bir daha sübut etdi: Cənubi Qafqazda ən konstruktiv və effektiv vasitəçi kimi çıxış etməkdə davam edən Rusiyadır. Məhz Rusiyanın sayəsində 2020-ci ildə tarixi üçtərəfli bəyanat imzalandı. Cənubi Qafqazdakı vəziyyətdə Moskva ədalətin və balansın tərəfini tutur. Lakin Fransanın ardınca ABŞ və Aİ-nin digər ölkələri kimi "vicdanlı brokerlərin" maskalarını atdığı bir şəraitdə regionun bir sıra ölkələri Qərbin Zaqafqaziyada öz oyununu oynamaq cəhdləri ilə mübarizə aparırlar.

Doğrudan da, cənab Peskovun bəyanatından danışsaq, xatırlayırıq ki, rəsmi Bakı Avropa strukturlarının vaxtaşırı ona qarşı hücumları səbəbindən kifayət qədər uzun müddət təmkinli davranırdı. Lakin Vaşinqtonun son hücumları səbri daşırdan son damla oldu. Artıq Qarabağ tamamilə öz nəzarətinə qayıdandan sonra Azərbaycan bu hücumlara sərt cavab verə bilər.





Üstəlik, biz Qərb qüvvələrinin Cənubi Qafqazı qarışdırmaq, onu öz standartlarına və məqsədlərinə uyğun formalaşdırmaq üçün davamlı cəhdlərini görürük. Fransa Ermənistana hərbi texnika və silah verir. İlin əvvəlində Avropa İttifaqı özünün "monitorinq" adlı mülki missiyasını yerləşdirdi, Moskva və Bakı birbaşa olaraq bu missiyanın gizli məlumat toplama prosesini həyata keçirdiyini bildirir. Yəni, regionda sülhün bərqərar olması yox, qonşuları bir-birinə sıxışdırmaq, yeni sabitliyi pozmaq cəhdləri var. Qərb Ermənistanı, Qarabağ ermənilərini müdafiə edən bəyanatlarla çıxış edir, Qarabağın erməni əhalisinin taleyindən ciddi narahat olduqlarını, özü də Ermənistan hakimiyyəti və maraqlı tərəflərin təhdidinə məruz qalaraq, süni şəkildə yaradılmış panikaya uyaraq regionu tərk etdiyini bildirir. Azərbaycan hakimiyyəti isə onlara geri qayıtmağı təklif edir. Amma Ermənistan rəhbərliyi buna imkan vermir. Bu, dünya ictimaiyyətini aldatmaq layihəsidir: Azərbaycanın guya işğalçı, Ermənistanın isə guya zərərçəkmiş tərəf olduğunu göstərməkdir. Əslində, obyektiv olaraq nə Paris, nə Vaşinqton, nə də Brüssel Qarabağ ermənilərinin taleyi ilə maraqlanmır. Qərbin Qafqazda öz maraqları var.

***- Niyə indi biz Vaşinqton və Brüssel tərəfindən maskaların belə cırılmasını görürük?***

- Fransa çoxdan maskasını cırıb. Vaşinqtondan danışsaq, səbəb Ukrayna ətrafındakı vəziyyətdəki uğursuzluqları və Rusiyanın təcrid olunması cəhdidir. Amma ABŞ-da seçkilər yaxınlaşır- Konqres və prezident seçkiləri. Bütün sorğularda demokratlar geriləyirlər. Bildiyiniz kimi, ABŞ-da böyük erməni icması var. Demokratlar isə bu gün guya ermənilərin qayğısına qalmaq istəyirlər. Amma bu, tamamilə yalandır və siyasi oyundur. Üstəlik, Fələstin-İsrail münaqişəsinin qanlı eskalasiyasının Vaşinqtonun imici üçün necə bitəcəyi məlum deyil. Birləşmiş Ştatlar İsraili dəstəkləyir və indi bir çox ölkələr İsraili təcavüzkar kimi mövqeləndirirlər.

Ona görə də, ABŞ rəhbərliyi Cənubi Qafqazda nəsə edəcəklərinə ümid bəsləyirlər. Ancaq çətin ki, bu, onların istədikləri kimi tam nəticə versin. Bəli, məqsəd Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaqdır. Gürcüstanla, sonda istədikləri kimi olmadı. İndi orada Rusiyaya kifayət qədər loyal olan bir hökumət var. ABŞ rəhbərliyi Azərbaycana da təzyiq göstərir. Amma müqayisə üçün deyək ki, Azərbaycan bu gün Cənubi Qafqazın ən suveren və ən zəngin dövlətidir. Ona görə də bu, Qərb üçün dadlı bir loxmadır. Ermənistanla eyni ssenarini Azərbaycanla da təkrarlamaq istərdilər, amma bu, alınmayacaq. Əgər rəsmi Bakı həm Aİ, həm də ABŞ-la bağlı güzgü effektli sərt bəyanatlar verməyə başlayıbsa, bu, o deməkdir ki, hər şey ciddidir və Azərbaycan özünün təzyiq altına alınmasına imkan verməyəcək. Qərbdə isə Azərbaycanın suverenliyinə xələl gətirmək istəyirlər.

Buna görə də, yeganə həqiqi "elastik material" Ermənistandır. Fransa onu özünün yeni müstəmləkəsinə çevirməyə çalışır.

***- Nikol Paşinyanın KTMT-dən potensial çıxışla bağlı getdikcə daha açıq bəyanatlar səsləndirdiyini görürük... Ermənistanın baş naziri ABŞ-la birgə təlimləri çox vacib adlandırıb. Nəyə görə Kreml İrəvandan Moskvaya qarşı qeyri-dost hücumların sayının artmasına baxmayaraq, bununla bağlı şərhlərində hələ də səbirli dildən istifadə edir?***

- Qərbin Cənubi Qafqazla bağlı planları ilə bağlı artan "səmimiyyəti" ilə Paşinyanın da "səmimiyyəti" artır. O, Vaşinqton və Brüsseldən, yumşaq desək, əmrlər alır. Ermənistan hakimiyyətinin Rusiyaya qarşı hücumlarının artmasına baxmayaraq, Kreml hələ də İrəvana ünvanlanan bəyanatların loyal, diplomatik ifadəsini saxlayır: bu yanaşma onunla izah olunur ki, Kreml bunu Ermənistanı müttəfiq dövlət kimi saxlamaq üçün edir; Beləliklə, Rusiya hakimiyyəti mahiyyətcə indiki Ermənistan hakimiyyətinə deyil, xalqa, ölkəyə münasibət edir. Münasibətlərdəki vəziyyətin real mənzərəsini son nəticədə Rusiya Xarici İşlər Nazirliyi səsləndirir. Hazırda Paşinyanın etibar reytinqi kifayət qədər aşağıdır. Qərbə ideal olaraq Ermənistanda daha sərt, ölkəni Rusiyadan ayrılmağa daha sürətlə aparacaq lider lazımdır. Rusiyaya isə Ermənistanda təbii ki, Qərbin himayədarlıq etdiyi yox, Moskvaya sadiq, ölkəni KTMT-dən çıxarmayacaq, Rusiya Federasiyası ilə yaxşı münasibətdə olan şəxs lazımdır.

***- Kreml bu yaxınlarda elan etdi ki, onlar Ermənistanın baş nazirinin MDB və Aİİ-nin dekabr sammitlərində iştirakına ümid edirlər...***

- Paşinyan Avrasiya İqtisadi İttifaqına yox, KTMT-yə qarşı iddialar səsləndirdi. Ermənistan Aİİ üzvlüyündən böyük iqtisadi bonuslar alır, Ermənistandan Rusiyaya böyük yük axını gedir, erməni diasporu Rusiyadan Ermənistana böyük vəsaitlər göndərir. Bütün bunlar baş verməsə, Ermənistanda iqtisadi vəziyyət daha da pisləşəcək və o zaman Paşinyanın vəziyyəti yaxşı olmayacaq- əhali küçələrə axışacaq. Əslində, Ermənistan iqtisadi cəhətdən Rusiyadan həddsiz dərəcədə asılıdır. Baş nazir bunu çox gözəl başa düşür və iki kresloda- Rusiya və Qərbdə- oturmağa cəhd etməkdə davam edir. Ona görə də əminəm ki, Ermənistan hökumətinin başçısı son aylarda iştirakdan imtina etməsinə baxmayaraq, bu dəfə görüşlərdə iştirak edəcək. Gələn il Ermənistan Aİİ-yə sədrlik etməlidir. Amma Ermənistanın baş naziri yenidən iştirakdan imtina edərsə, bu, Qərb qüvvələrinin ona hansısa ciddi təhlükəsizlik şəbəkəsi, o cümlədən maliyyə təminatı verdiyini sübut edən siqnal olacaq.

***Tərcümə - Elçin Bayramlı***

# AXCP-nin növbəti qurultayı Əli Kərimli üçün sonuncu ola bilər

Yanlışlıq, hadisələri düzgün analiz edib, ona müvafiq addımların atılmaması nəticədə xoş olmayan sonluqla yekunlaşır. Xüsusilə də siyasət adamının səhv, düşünülməmiş addımları ağır nəticələr verir. Bununla nəinki özünü, ümumilikdə ətrafında olanları da uçuruma sürükləyir. Ona görə də, siyasətçi hər bir addımını atarkən düşünməli, verəcəyi qərarlarönçəsi yaxşı-yaxşı fikirləşməlidir. Görünən isə ondan ibarətdir ki, bu gün Azərbaycan müxalifətinin dağıdıcı qanadı hesab edilən şəxslər fəaliyyət istiqamətlərini kor-koranə müəyyənləşdirib hərəkət edirlər. Bu korluq nəticə etibarı ilə partiyaların parçalanmasına, siyasi arenanı tərk etməsinə gətirib çıxarır. Misal olaraq son vaxtlar AXCP-dən olan kütləvi istefaları göstərmək olar. "Siyasi partiyalar haqqında qanun"un yenicə qəbul edildiyi, siyasi partiyaların Ədliyyə Nazirliyindən təkrar qeydiyyatdan keçdiyi bir vaxtda AXCP-nin istefalarla üzləşməsi bu partiyanın sonunun heç də uzaqda olmadığını göstərir. Sual yaranır, niyə AXCP-dən istefalar baş verir? Nədən AXCP gərəksiz partiya kimi dəyərləndirilir? Cavab birmənalıdır, Əli Kərimlinin dövlət və millət maraqlarına zidd siyasət aparması AXCP-dəki sağlam düşüncəli insanları narahat edir, etirazlar isə qəbul edilmir. Çünki rəhbərliyin siyasətinə təpki göstərənlərin aqibəti Sahib Kərimli, Aydın Əliyev və digərləri kimi partiyadan uzaqlaşdırmaq olur. Ən acınacaqlısı isə partiyadan xaric edilənlər sonradan Ə.Kərimlinin trol dəstəsi tərəfində sosial şəbəkələr üzərindən təhqir edilir, haqlarında çoxsaylı ittihamedici statuslar paylaşılır. Ona görə də, AXCP-ni tərk etmək istəyənlər sakit şəkildə qərarlarını həyata keçirirlər.

### Xarici dairələrin Azərbaycana yönələn qərəzli yanaşmalarının artmasında Ə.Kərilmli kimi satqınların xüsusi rolu mövcuddur



Azərbaycan 44 günlük Vətən Müharibəsində parlaq qələbə qazandı, torpaqlarını erməni işğalından azad etməsindən sonra yerli və xarici qüvvələr narahat olmağa başladılar. Müxtəlif şər və böhtanlarla, pozucu aktlarla, məntiqsiz qərarları ilə uğurlarımıza kölgə salmaq, böyük yolun davamına əngəllər yaratmağa çalışırlar. Əli Kərimli və trol dəstəsi bu xüsusda daha fəaldılar. Belə demək mümkünsə bəzi xarici dairələrin Azərbaycana yönəldilmiş qərəzli yanaşmaların, şər və böhtanların sayının artmasında Ə.Kərimli kimi satqınların xüsusi rolu və fəaliyyətləri mövcuddur. Bir qədər əvvəl Bakıda keçirilən Qoşulmama Hərəkatının toplantısında Fransanın müstəmləkə siyasətinin kəskin tənqid edilməsinə və dünya birliyindən Fransa hökumətinə qarşı sərt cəzaların tətbiq edilməsi çağırışlarına Ə.Kərimlinin sağ əli hesab olunan Tofiq Yaqublunun etiraz etməsi və Fransanın tənqid olunmasına qarşı çıxması AXCP sədrinin tapşırığı əsasında ifadə olunan fikirlərdir. Çünki T.Yaqublu elə bir ağılsız və düşüncəsiz insandır ki, onun öz ağlı ilə hansısa fikri söyləyə biləcəyi inandırıcı deyil. Eyni zamanda, "Milli Şura"nın didərgin sədri Cəmil Həsənlinin Azərbaycan əleyhinə xarici radiostansiyalar vasitəsi ilə böhtanlar səsləndirməsi Ə.Kərimlinin tapşırığı əsasında söylənilir. Yəni, Ə.Kərimli xaricdən aldığı pullarından T.Yaqubluya, C.Həsənliyə qəpik-quruş verməklə, onları Azərbaycanın dövlət maraqlarına qarşı sərsəm fikirlər söyləməyə məcbur edir. Bütün bu kimi faktlar onu təsdiq edir ki, Ə.Kərimli, T.Yaqublu, C.Həsənli kimi ünsürlər birbaşa xarici maraqlı dairələrin Azərbaycandakı əlaltıları rolunda çıxış edirlər. Hətta bəzən bunu dolayısı dilə də gətirirlər. Ə.Kərimlinin, C.Həsənlinin, T.Yaqublunun "ABŞ belə istəyir", "ABŞ-a qarşı çıxmaq sadəlövhlükdür", "Fransa dost ölkələrdəndir" və bu kimi yarınmağa xidmət edən açıqlamalar, deyilənlərin əsaslı olduğunu göstərir.

### Əli Kərimlinin riyakarlığı AXCP-nin dağılmasına gətirib çıxarır

"Siyasi partiyalar haqqında qanun"nun tələblərinə görə, partiyalar Ədliyyə Nazirliyindən təkrar qeydiyyatdan keçdikdən sonra növbəti qurultayını keçirməlidir. Görünən ondan ibarətdir təkrar qeydiyyatdan keçən 26 partiyanın demək olar ki, əksəriyyəti qanunvericiliyin tələblərini yerinə yetirərək qurultaylarını keçiriblər. Yenə də geridə qalan AXCP-dir. Əli Kərimli müxtəlif bəhanələr gətirməklə qurultayın keçirilməsini uzadır. Bununla bağlı ona ünvanlanan suallara özünəməxsus anormal cavablar verir. Gah deyir, qurultaya hazırlıq üzrə təşkilat komitəsi qurultayın vaxtını müəyyənləşdirməyib, gah iddia edir ki, dövlət onlara qurultayın keçirilməsi üçün yer ayırmır, gah da cəfəng fikirlər irəli sürərək bildirir ki, guya hökumət onların qurultaylarını keçirməyə əngəllər yaradır. Hətta ənənəvi şəkildə hədələyici mesajlarla çıxış etməkdəndə çəkinməyir: "AXCP yenidən qurultay keçirəcək. Hökumət yer verməkdən imtina etməsə, qurultayımızda partiyamızın yeni proqramı da qəbul olunacaq. Yeni partiya proqramımızda ölkənin problemlərini necə həll edəcəyimizi də yazmışıq". El məsələsidir, "çobanın könlü olsa təkədən pendir tutar". Əgər Ə.Kərimli qurultay keçirməkdə istəkli olsa, onu evində oturmaqla onlayn formada təşkil edib, keçirə bilər. Artıq bununla bağlı təcrübədə mövcuddur. Bəzi siyasi partiyalar, onlayn formada qurultaylarını keçirərək, nəticələrini Ədliyyə Nazirliyinə təqdim ediblər. Ə.Kərimli qurultayın keçirilməsinin vaxtının uzatmaqla məkrli məqsədi var. Çalışır ki, ondan narazı qalan, qurultayda israrlı şəkildə istefasını tələb edəcək şəxsləri müəyyən şirniklendirici vədlərlə razı salsın. Lakin inandırıcı deyil ki, Ə.Kərimliyə qarşı sərt mövqe sərgiləyən hansısa cəbhəçi nəyinsə qarşılığında öz məqsədindən imtina etsin. Bu isə onu deməyə əsas verir ki, budəfəki qurultay Ə.Kərimli üçün sonuncu ola bilər.

***İ.ƏLİYEV***

# QİÇS-dən necə qorunmalı?

## 1 dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günü fonunda acı gerçəklər və yüksələn statistika

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*

**Günə Özəl**




Qazanılmış İmmun Çatışmazlığı Sindromu bütün dünyada çox geniş yayılmaqda olan, müasir təbabət elminin və səhiyyənin, o cümlədən də dünya birliyinin ən qlobal problemlərindən hesab edilən bir patologiyadır. Virus mənşəli infeksion xəstəlik olan QİÇS immun sistemin tam depressiyasına, infeksiyalara qarşı orqanizmin ümumi müqavimətinin kəskin zəifləməsinə, onkoloji xəstəliklərin inkişafına və s. bu kimi ağır vəziyyətlərə gətirib çıxarır ki, bütün bunlar da ölümlə nəticələnir.

### Yoluxanların sayı sürətlə artır

Xəstəliyin adı, əslində, HİV - Human İmmunodeficiency Virus, yəni İİV - İnsan İmmunçatışmazlıq Virusudur. QİÇS isə bu infeksiyanın sonunda, onun ağırlaşması və son nəticəsi kimi meydana çıxan bir əlamətdir. Lakin bu infeksiyanın ilk dəfə öyrənildiyi vaxtdan etibarən onun adına QİÇS deyildiyi üçün bu günə qədər də bu xəstəliyin adlandırılmasında bu termindən istifadə edilir. Xəstəlik 1981-ci ildə kaliforniyalı həkim Maykl Hotlib tərəfindən ABŞ-da homoseksuallar arasında aşkar olunub.

QİÇS dünyanın bütün ölkələrində var və böyük sürətlə də artmaqda davam edir. Belə hesab edilir ki, hər il yoluxmuş və xəstə şəxslərin sayı 2 dəfə artır. Xəstəlik XX əsrin 50-ci illərində Mərkəzi Afrikada başlayıb və yeni mutant virus yerli əhaliyə meymunlardan keçib. Afrikadan isə xəstəlik Haiti adalarına, sonra isə Amerika və Qərbi Avropaya yayılıb.

İİV/QİÇS ilk aşkar edildiyi 1980-ci illərdən bəri, din, dil, irq, cinsiyyət və ölkə ayrı-seçkiliyi olmadan sürətlə yayılaraq ölkə iqtisadiyyatına böyük zərər verir, səhiyyə xərclərini külli miqdarda artırır. Hələ effektiv peyvəndi olmayan HİV/AİDS-lə mübarizənin ən təsirli yolu bu virusun ötürülmə yollarını bilməklə effektiv şəkildə qorunmaqdır. Birləşmiş Millətlər Təşkilatının HİV/AİDS üzrə Birgə Proqramının (UNAIDS) 2022-ci il hesabatına əsasən, 2021-ci ildə dünyada 650 min insan İİV/AİDS-lə bağlı səbəblərdən dünyasını dəyişib, 1,5 milyon insan isə İİV-ə yoluxub. 2021-ci ildə İİV-ə yoluxanların sayı təxminən 38,4 milyon nəfər olub.

### QİÇS-ə necə yoluxulur?

Bütün dünyada olduğu kimi, ölkəmizdə də İİV/QİÇS-in yayılmasının məhdudlaşdırılması, hətta dayandırılması, ilk növbədə, yoluxma yolları və qorunma yolları haqqında cəmiyyətin maarifləndirilməsi ilə mümkün olacaq. İİV/QİÇS-lə bağlı əhalinin maarifləndirilməsi məqsədilə 1988-ci ildən 1 dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günü kimi qəbul edilir. Qlobal sağlamlıq kampaniyası olan Ümumdünya QİÇS-lə Mübarizə Günü Ümumdünya Səhiyyə Təşkilatı "Bərabərliyi təmin et" mövzusunda tədbirlər keçirir. 1 dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günü xəstəliyin tanınması, erkən diaqnoz, erkən müalicə və effektiv qoruyucu tədbirlər üçün xəbərdarlıq rolunu oynayır.



1. Cinsi əlaqə zamanı qoruyuculardan istifadə etmədikdə.
2. Narkomanlar arasında eyni şiprisdən istifadə zamanı.
3. Tatuaj zamanı eyni iynə ilə bir neçə nəfər tatu olunduqda.
4. QİÇS-li ana uşağını əmizdirdikdə.
5. Qanköçürmə zamanı.

### Azərbaycanda da vəziyyət yaxşı deyil



Azərbaycanda ilk dəfə İİV infeksiyası 1987-ci ildə aşkar edilib. Ölkəmizdə bu infeksiya yoluxma, əsasən, yüksək riskli qruplar arasında yayılıb. Hazırda Respublika QİÇS-lə Mübarizə Mərkəzində 8202 İİV-lə yaşayan Azərbaycan vətəndaşı rəsmi qeydiyyatdadır. Onlardan 5704-i (69,6%) kişi, 2498-i (30,4%) qadındır. 2022-ci ildə Qazanılmış İmmun Çatışmazlığı Sindromu ilə daha 89 nəfər qeydə alınıb.

Vətəndaşlar arasında 1987-2022-ci illərdə aşkar olunan İİV-ə yoluxma hallarının 36,7 faizi inyeksion narkotik istifadəsi nəticəsində,52,5 faizində heteroseksual, 4,3 faizində homoseksual kontakt nəticəsində, 1,6 faizində anadan uşağa keçməklə, 0,01 faizində (1 nəfər) donor qanının köçürülməsi nəticəsində baş verib. 4,9 faizində yoluxma yolu müəyyən edilməyib. 2022-ci ilin ilk 5 ayı ərzində İİV-ə yeni yoluxma hallarının sayı 341 olub. Onlardan 336-sı Azərbaycan vətəndaşlarında, 5-i isə əcnəbilərdə aşkarlanıb. Qeydiyyata alınmış 336 ölkə vətəndaşlarından 229-u kişi, 107-si qadındır. Hazırda 17 hamilə qadın Respublika QİÇS-lə Mübarizə Mərkəzində qeydiyyatdadır.



### QİÇS-lə mübarizə Qanunu

İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında Azərbaycan Respublikasinin Qanunu var. 2010-cü ildə qəbul edilən bu Qanun Azərbaycan Respublikası ərazisində insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin profilaktikasının, diaqnostikasının, müalicəsinin, İİV-lə yaşayan şəxslərə tibbi və sosial-psixoloji yardım göstərilməsinin hüquqi əsaslarını müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir.

İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanunundan, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

### Mübarizədə dövlət təminatı

İİV infeksiyası ilə mübarizə üzrə milli strategiyanın və dövlət proqramlarının qəbul edilməsi və həyata keçirilməsini nəzərdə tutan qanun, İİV infeksiyası ilə mübarizə üzrə xidmətlərin ölkənin bütün ərazisində təşkilinin təmin edilməsini təmin edir. Bura, əhalinin İİV infeksiyası və onunla mübarizə sahəsində hərtərəfli məlumatlandırılması və maarifləndirilməsi, yüksək riskli əhali qrupları arasında İİV infeksiyasının səmərəli profilaktikası üzrə kompleks tədbirlərin həyata keçirilməsi də daxildir.

İİV olan şəxslərin tibbi müayinəsinin anonimliyinə və konfidensiallığına təminat verilir, İİV-li insanın tibbi müayinəsinin dövlət tibb müəssisələrində pulsuz həyata keçirilməsi, tibbi müayinənin testdən əvvəl və testdən sonrakı psixososial məsləhətlərlə müşayiət olunması, tibbi müayinənin məlumatlandırılmış razılıq əsasında həyata keçirilməsi və xəstəliklə mübarizə sahəsində epidemioloji nəzarət, monitorinq və qiymətləndirilmə sisteminin təşkili, tibbi prosedurların, eləcə də diaqnostik, müalicəvi və elmi məqsədlərlə istifadə olunan qanın, qan komponentlərinin, digər bioloji mayelərin, orqan və toxumaların təhlükəsizliyinin təmin edilməsini dəstəkləyən qanun yoluxma riski olan tibb işçilərinin və digər mütəxəssislərin təhlükəsiz əmək şəraiti ilə və zəruri qoruyucu vasitələrlə təmin edilməsini də təmin edir.

İİV-in anadan uşağa ötürülməsinin profilaktikasının təmin edilməsi, İİV-lə yaşayan şəxslərin və İİV infeksiyasından zərər çəkmiş şəxslərin qanunvericiliklə müəyyən edilmiş qaydada sosial müdafiəsi, mütəxəssislərin hazırlanması, tibb işçilərinin bilik və bacarıqlarının artırılması üçün şəraitin yaradılması da bu qanunla tənzimlənir.




**Lalə Mehralı**

# Gənc ailələrdə niyə münaqişələr baş verir?

*PSİXOLOQ FİKRİ*

**Son dövrlərin ailə-məişət problemlərindən biri də gənc ailələrdə yaranan münaqişələrdir. Bir sıra ailələrin dağılması ilə nəticələnən bu problemin səbəbi və həlli yolları nələrdir? "Gənc ailələrdə baş verən münaqişələrin səbəbləri ailə qurmazdan əvvəl bəzi şeyləri aydınlaşdırmamaqdan irəli gəlir". Bu sözləri SİA-ya açıqlamasında klinik-psixoloq Fuad Əsədov deyib.**



Psixoloq Azərbaycanda ailə qurmağı iki hissəyə bölür: "Azərbaycanda ailələr iki üsulla qurulur: Valideyn və qohumların məsləhəti ilə belə demək mümkünsə, gəncləri bir-birinə "calamaqla" qurulan ailələr var. Bunlar bir az risklidir. Düzdür, belə qurulub, uğurlu olan ailələr də var. Amma yenə də risk payı çoxdur. Səbəb isə buradakı cütlüklərin bir-birini tanımamasıdır. Bir-birlərinə uyğun olduqlarını, yola gedə biləcəklərini dəqiq bilmirlər. Evlənirlər və görürlər ki, qaydasında getməyən məsələlər var, sözləri bir-birinin boğazından keçməməyə başlayır. Bir-birlərinin gözlənti və kriteriyalarını doğrutmamağa başlayırlar. Nəticədə münaqişələr yaranır. İndi isə digər nümunəyə baxaq. İki gənc bir-biri ilə tanış olur, sevir, evlənmə qərarı alırlar. Bu zaman ya gəncliyin yaratdığı hiss fırtınasının təsiri ilə, ya da sevginin yaratdığı irrasionallığın üzündən bəzi şeyləri görməzdən gəlirlər.

Bir-birini sevən gənclər məntiqlə düşündükdə görürlər ki, ortada problem yaradacaq, xoşagəlməz şeylər var və qarşı tərəf ona uyğun deyil. Buna baxmayaraq, həyatındakı insanı sevir və bu hissin təsiri ilə evlənir. Fikirləşir ki, ya mənfi xüsusiyyətlər evləndikdən sonra aradan qalxacaq, ya da bütün bunlara dözəcək. Düşünür ki, "sevirəm", "sevgi hər şeyin dərmanıdır", "biz sevgi ilə hər şeyin öhdəsindən gələrik" və s. Amma bunlar doğru deyil. Sevgi hər şey demək deyil, sevgi problemin açarı, həlli deyil. "Sevgi varsa, biz hər şeyə qalib gələ bilərik" cümləsi yanlışdır. Dəfələrlə görürük ki, insanlar bir-birini sevir, ailə qurur. Sonra bir-birlərinə o qədər uyğunsuz olurlar ki, ya sevgi ölür, ya da sevirlər, uyğun deyillər. Bir yolu eyni pəncərədən izləmirlər. Ona görə də evlənmədən öncə bütün bunları nəzərə almaq lazımdır. Gözləntilər, qəbuledilməz şeylər və s. hamısına diqqət yetirmək lazımdır".

F.Əsədov sevginin hər şeyi həll etmədiyini vurğulasa da, bəzi problemlərin həllini yüngülləşdirdiyini deyir:

"Düzdür, sevən zaman problemlərin öhdəsindən daha rahat gəlmək olur, sevmək problemləri yüngülləşdirir, amma hər şeyi həll etmir. Sevgi problemlərin öhdəsindən gəlməyə kömək edən faktordur, amma hər şeyin həlli deyil. Gənclər ola bilər ki, əvvəldən müəyyən etməyiblər ki, gözləntilər nələrdir, özləri belə bunları bilmirlər. Buradan gənclərə səslənirəm ki, bu barədə dərin düşünsünlər, özləri üçün nə istədiklərini bəlli etsinlər".

***Çinarə Muradova***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Nazirlərə "Whatsapp" qadağan olundu

**Fransa hökumətinin üzvləri bundan sonra "WhatsApp", "Telegram" və "Signal" proqramlarından istifadə edə bilməyəcəklər. SİA xarici mətbuata istinadən xəbər verir ki, müvafiq qərar respublikanın baş naziri Elizabet Born tərəfindən qəbul edilib. Sənədə əsasən, nazirlər cari ilin 8 dekabr tarixinədək Milli İnformasiya Sistemlərinin Təhlükəsizliyi Agentliyi (ANSSI) tərəfindən təsdiqlənməyən bütün mesajlaşma proqramlarını silməlidir.**




Nazirlər Kabinetinin üzvlərinə sənəddə "ANSSI-dən təhlükəsizlik sertifikatı almış yeganə mesajlaşma platforması" kimi təsvir edilən "Olvid"dən istifadə etmək tövsiyə olunur. Onu istifadə etmək üçün SİM karta və ya telefon nömrəsinə ehtiyac yoxdur.

***Ləman Sərraf***

# "Barselona" bu futbolçuya görə 5 milyon avro ödəyəcək



"Barselona" futbolçusu Pedriyə görə oyunçunun sabiq "Las Palmas"a 5 milyon avro ödəyəcək. AS nəşrinin yazdığına görə, buna səbəb 21 yaşlı yarımmüdafiəçinin Kataloniya təmsilçisində 100-cü oyununa çıxmasıdır. Beləliklə, transfer bonusları ilə bağlı "Las Palmas"la müqavilənin sonuncu bəndi aktivləşib. Çünki həmin müqavilədə futbolçu 100 oyuna çatacağı təqdirdə 5 milyon avro ödənilməsi ilə bağlı bənd yer almışdı.

# Arıqlamaq üçün sirkə içmək düzgündürmü?

*FAKTLAR*



Sirkənin müxtəlif istifadə sahələri mövcuddur. SİA xarici mətbuata istinadən xəbər verir ki, bir çox insan arıqlamaq üçün sirkəli su və müxtəlif istifadə hallarını qəbul edir. Sirkə kəskin və gigiyenik maddədir. Araşdırmalara görə, sirkəli su kalori yandırıcı xüsusiyyətə malikdir. Sirkədən 3 min ildən çoxdur istifadə olunur.

İçərisində amin turşusu, şəkər, üzvi turşu, polifon, tetrametilpirazin kimi maddələr vardır. Bədəndəki İçildiyi zaman ağızda həzmi həyata keçirən karbohidratların belə 30-40%-həzmi birinci ağızdan başlayır. İçildiyi zaman ağızda həzmi həyata keçirən karbohidratların belə 30-40%-nin həzmi azalır. Sirkə ilə ağızda ph səviyyəsi 4-dən aşağı enir. Nəticədə həzm yavaşlayır, karbohidrat udulması azalır. Aparılan başqa bir araşdırmada karbohidrat tərkibli başqa qidalarla bərabər 20 ml alma sirkəsi içildikdə 120 dəqiqə toxluq yaratdığı və qan şəkərinin yüzdə iyirmi faizi qədər daha aşağı səviyyələrdə qaldığı aşkar edildi. Araşdırma nəticələrinə görə, gündə 10-30 ml sirkəni salatda və içkilərdə içmək mümkündür. Ancaq birbaşa içmək sağlamlıq üçün problem yarada bilər.

***Söylü Ağazadə***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**